


*Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır...*

# BİNƏQƏDİ

№35 (129) | 11 sentyabr 2015 İCTİMAİ-SİYASİ QƏZET Qiymәti: 40 qәpik


Parisdə "Azərbaycan şəhərciyi" fəaliyyətə başlayıb

səh.2

# Prezident İlham Əliyev Binəqədi rayonunda olub





Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası nəticəsində Azərbaycan qüdrətli dövlətə çevrilib. Təbii ki, ölkəmizin əldə etdiyi nailiyyətlər öz növbəsində regionların sosial-iqtisadi inkişafına təkan verib.

Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı kimi fəaliyyət göstərdiyi müddətdə sosial-iqtisadi sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə respublikamızın ən yeni tarixinə qızıl hərflərlə yazılan uğurların müəllifi olmuşdur. Ölkə başçısında olan bir sıra yüksək keyfiyyətlər – qətiyyətlilik, prinsipiallıq, zamanında sözünü demək, radikal tədbirlər görmək bacarığı Azərbaycanın inkişafını və müxtəlif sferalarda qazanılan uğurları şərtləndirən əsas amillərdəndir. Dövlət başçısının istər xarici, istərsə də daxili məsələlərdə nümayiş etdirdiyi siyasi iradə Azərbaycanın daha da qüdrətlənməsinin, ölkənin dinamik inkişafının əsas leytmotivini təşkil etmişdir.

Sentyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Binəqədi rayonundakı 283 nömrəli orta məktəbdə həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verib. Bildirilib ki, 283 nömrəli tam orta məktəbin binası 1988-ci ildə istifadəyə verilib. Ümumi ərazisi 24 min kvadratmetr olan məktəbin binası üçmərtəbəli 1 korpusdan, ikimərtəbəli 2 korpusdan və birmərtəbəli 3 keçiddən ibarətdir. Ümumilikdə əsaslı təmir edilən sahə 6,5 min kvadratmetrdir. Təhsil ocağının binasında yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib.

Binanın foyesində ulu öndər Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi qayğını və Prezident İlham Əliyevin paytaxtın Binəqədi rayonundakı məktəblərin müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində gördüyü işləri əks etdirən fotolardan ibarət stendlər yaradılıb. Məktəbin binasında sonuncu dəfə 2006-cı ildə cari təmir işləri aparılıb. "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın müvafiq bəndinin icrası ilə əlaqədar məktəb binasının əsaslı təmir işlərinə 2015-ci il iyunun 1-dən başlanılıb. Burada kommunikasiya, elektrik, su-kanalizasiya, istilik xətləri yenilənib. Binada 62 sinif otağı var.

Qeyd olunub ki, məktəbdə tədris birnövbəli rejimdə aparılır. Burada Azərbaycan və rus bölmələrində 1200 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 160 müəllim məşğul olur. 2014-2015-ci tədris ilində məktəbi bitirən 64 məzundan 47-si respublikanın ali məktəblərinə qəbul olunub ki, bunlardan da yeddisi 600-dən yuxarı bal toplayıb. Məktəbin idman zalı da müasir səviyyədədir. Burada, eyni zamanda, iki futbol və bir voleybol meydançası da şagirdlərin ixtiyarına veriləcək.

Bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesinin məqsədyönlü şəkildə həyata keçirilməsi təhsil sahəsinin ən müasir tələblər səviyyəsinə çatdırılmasına geniş imkanlar yaradır.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları, "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində həyata keçirilən uğurlu islahatların, yenidənqurma işlərinin nəticəsidir ki, hazırda Azərbaycanın bütün bölgələrində inkişafa nail olunub, regionların siması, insanların sosial həyatı əhəmiyyətli dərəcədə dəyişib.

Dövlət başçısı ötən illərdə Binəqədi rayonuna etdiyi səfərlərdə abadlıq və quruculuq üzrə aparılan hər bir işlə yaxından tanış olub, müxtəlif infrastruktur və yeni sosial obyektlərin açılışında iştirak edib.

Rayonun dinamik inkişafına mühüm təkan verən ən mühüm amil, şübhəsiz, ölkə başçısı İlham Əliyevin xüsusi diqqət və qayğısı, rayona müntəzəm səfərlər etməsi, görülən işlərə dəstək verməsidir. Xüsusi vurğulamaq lazımdır ki, dövlətimizin başçısı 2013-cü ildə Binəqədiyə 4 dəfə səfər edərək aprelin 22-də Biləcəri qəsəbəsindəki mədəniyyət-istirahət parkının, iyulun 3-də YAP Binəqədi rayon təşkilatının inzibati binasının, Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkının və Binəqədi RİH-in inzibati binasının, avqustun 30-da əsaslı təmirdən çıxmış 135 və 248 saylı tam orta məktəblərin, sentyabrın 30-da Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni inzibati binasının açılış mərasimlərində iştirak etmiş, görülən işləri yüksək dəyərləndirmiş, zəruri tövsiyə və tapşırıqlarını vermişdir. Sonrakı illərdə Prezident İlham Əliyev Bakının Binəqədi rayonunda 182 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib, 115 nömrəli tam orta məktəbdə əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olmuşdur. Eyni zamanda Heydər Əliyev adına parkın, Heydər məscidinin, habelə digər sosial obyektlərin açılışlarında ölkə başçısının iştirakı rayonda aparılan quruculuq işlərinin vüsətini daha da artırmışdır.

# Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi inkişafı təmin olunur

Sentyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi məsələlərə və 2016-cı ilin dövlət büdcəsinin hazırlığı işlərinə həsr edilmiş müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə çıxış edib: "Dünyada dərin iqtisadi və maliyyə böhranı davam edir. Xüsusilə Avrasiya məkanında bu böhran daha da ciddi formalar alıb. Həm Avropada, həm də Asiyada iqtisadi tənəzzül müşahidə olunur. Bunun müxtəlif obyektiv və subyektiv səbəbləri var. Bu səbəbləri əlbəttə ki, təhlilçilər araşdırırlar, araşdıracaqlar. Bu, bizim işimiz deyil. Bizim işimiz ondan ibarətdir ki, ölkəmizi, ölkə iqtisadiyyatını dünyada gedən mənfi proseslərdən maksimum dərəcədə qoruyaq. Biz bunu bacarırıq və uğurla bacarırıq, ölkəmizi qoruyuruq. Ölkəmizin təhlükəsizliyini, sabitliyini, iqtisadi inkişafını təmin edirik.

Bu il Azərbaycanda iqtisadi inkişaf çox sürətlidir. Gələn ay biz ənənəvi olaraq hökumətin geniş iclasında 9 ayın yekunlarını və bu inkişafı müzakirə edəcəyik. Ancaq 6 ayın yekunları deməyə əsas verir ki, biz bu ili çox yüksək nəticələrlə başa vuracağıq. Ümumi daxili məhsul təxminən 6 faiz artmışdır. Qeyri-neft iqtisadiyyatı 9 faizdən çox artmışdır. İnflyasiya çox aşağı səviyyədədir. Kənd təsərrüfatı 7,3 faiz artmışdır. Qeyri-neft sənayesi 14 faiz artmışdır. Yəni, bu, böhranlı ildə əldə edilən nailiyyətlərdir və dünya miqyasında buna bənzər yüksək nəticələr görmək çox çətindir. Yenə də nəyə görə? İlk növbədə, bizim güclü siyasi iradəmiz var və biz öz siyasətimizi ancaq Azərbaycan xalqının maraqları üzərində qurmuşuq. İkincisi, biz uzun illər düşünülmüş iqtisadi siyasət əsasında islahatlar aparmışıq. Bu islahatlar bu gün beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir.



Onu da qeyd etməliyəm ki, bu il "Fitch" reytinq agentliyi Azərbaycanın sabit reytinqini bir daha təsdiqləyib. Bizim "BBB" səviyyəsində reytinqimiz var. Bu da çox böyük nailiyyətdir. Bunu geniş ictimaiyyət bəlkə də bilmir və mətbuatda da çox qısa bir xəbər kimi təqdim edilmişdir. Halbuki bu, çox böyük hadisədir. İndi başqa ölkələrin kredit reytinqlərinə baxsınlar, hamısı aşağı düşür. Azərbaycanda bu reytinq sabitdir. Nəyə görə? Əvvəllər bizim uğurlarımızı bədxahlar, paxıllar neftlə bağlayırdılar. Deyirdilər ki, Azərbaycanda neft hasil olunur.

*Ardı səh. 2-də*


• TƏDBİR 3



Gənclərin II Liderlik Məclisi uğurla başa çatıb

• MİLLİ MƏCLİS–2015 4




Parlament seçkilərinə hazırlıq işləri davam edir

• SOSİAL 5



Əsas məqsəd sakinlərin asudə vaxtının səmərəli təşkilidir

• ABADLIQ 6



Yollarda əsaslı təmir işləri aparılır

# Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi inkişafı təmin olunur

*Əvvəli səh. 1-də*

Ona görə Azərbaycan inkişaf edir. Yaxşı, Azərbaycanda neft hasilatı artmır, düşür. Neftin qiyməti iki dəfədən çox düşüb. Ancaq biz yenə də inkişaf edirik. Qəbul etmək istəmirlər ki, bizim inkişafımızın təməlində düşünülmüş siyasət dayanır. Antiazərbaycan qüvvələr, islamafob qüvvələr, bizim müstəqilliyimizlə barışmaq istəməyənlər həmişə çalışırlar ki, işimizə kölgə salsınlar.

Bu gün də bizə qarşı çirkin kampaniya davam edir – Avropa Oyunlarının ərəfəsində və Oyunlar zamanı, indi. Nəyə görə? Çünki biz ölkəmizi qoruyuruq. İmkan vermirik və verməyəcəyik ki, "beşinci kolon", milli satqınlar, xainlər burada meydan oxusunlar.

Bax, budur bugünkü ümumi siyasi və iqtisadi mənzərə. Mən bir daha demək istəyirəm, biz ilin sonuna qədər bütün lazımi tədbirləri görəcəyik ki, iqtisadi inkişaf davam etsin. Əlbəttə, hökumət daha fəal, çevik işləməlidir ki, bizim iqtisadiyyatımız gələn il də artsın.

Bir neçə gün bundan əvvəl hökumətin iclasında gələn ilin büdcəsi müzakirə edilmişdir. Mənə artıq məruzə edilib. Biz bu məsələni daha da geniş müzakirə edəcəyik. Demək istəyirəm ki, gələn ilin büdcəsi real vəziyyəti nəzərə almalıdır. Gələn ilin büdcəsi daha çox sosial yönümlü büdcə olmalıdır. Əlbəttə ki, ən böyük prioritet təşkil edən investisiya layihələri də icra edilməlidir. Ancaq prioritet olmayan, o qədər də vacib xarakter daşımayan layihələri biz büdcə proqramına, investisiya proqramına salmamalıyıq. İsrafçılığa yol verilməməlidir. Maliyyə nizam-intizamı daha da gücləndirilməlidir və çalışmalıyıq ki, vəsaitə qənaət edək. Bütün ölkələr indi bu siyasəti aparır və biz də bu siyasəti daha da ciddi şəkildə aparmalıyıq.

Əvvəlki illərdə biz daha çox çalışırdıq ki, ölkə qarşısında duran bütün sosial-iqtisadi məsələləri tezliklə həll edək. Məhz ona görə biz bəzi hallarda o qədər də böyük prioritet təşkil etməyən layihələrə də vəsait ayırırdıq ki, inkişaf daha da sürətlə getsin. Çünki görüləsi işlər kifayət qədər çox idi. Ancaq bu gün biz əsas infrastruktur layihələrini icra etmişik, bəziləri davam edir. Ancaq burada köklü şəkildə çox ciddi dönüş yaranıbdır. Sosial infrastruktur layihələrinin bir çoxunu icra etmişik. Ölkədə sahibkarlığın, biznesin inkişafı üçün möhkəm zəmin yaradılıbdır – infrastruktur layihələri, kreditləşmə və əlbəttə ki, dövlət siyasəti. Ona görə biz gələn ilin büdcəsinə çox diqqətlə baxmalıyıq. Yenə də demək istəyirəm ki, orada ən əsas məsələlər öz həllini tapacaq.

İlk növbədə, qeyd etməliyəm ki, bütün sosial proqramlar ixtisarsız icra ediləcəkdir. Azərbaycan vətəndaşları əmin ola bilərlər ki, burada heç bir ixtisar ola bilməz. Mən onu da qeyd etməliyəm ki, sosial infrastruktur layihələri icra olunacaqdır. Məktəb tikintisi, uşaq bağçalarının, xəstəxanaların tikintisi davam edəcək. Eyni zamanda, sosial siyasətlə bağlı institusional islahatlar davam etdiriləcək. Onu da deməliyəm ki, dərman preparatları bazarının tənzimlənməsi işində biz çox ciddi dönüşə nail olduq və sentyabrın 15-dən sonra hər bir Azərbaycan vətəndaşı bunu hiss edəcək. Dərmanların qiymətinin orta hesabla 2-3 dəfə aşağı salınması təmin edilibdir.

İdarəetmə sahəsində islahatlar dərinləşməlidir. Korrupsiyaya, rüşvətxorluğa qarşı daha da ciddi mübarizə aparılmalıdır. Bu yaxınlarda imzaladığım Fərman əsasında "ASAN xidmət"ə yeni funksiyalar verilibdir. Mənzil-kommunal təsərrüfatının vəziyyətini hər bir Azərbaycan vətəndaşı bilir: nə qədər qanunsuz tələblər irəli sürülür, insanları nə qədər incidirlər. İndi "ASAN xidmət"də hər şey aşkar olacaq.

Bax, biz bütün işləri bu səpkidə görürük. Bir daha demək istəyirəm ki, mən Azərbaycanın uğurlu inkişafı ilə bağlı heç bir problem görmürəm. Biz 2016-cı ildə də uğurla inkişaf edəcəyik, ölkə qarşısında duran bütün vəzifələri icra edəcəyik. Sadəcə olaraq, hökumət ilin sonuna qədər, xüsusilə, gələn ilin xərcləri, investisiya proqramı, maliyyə vəziyyətimiz ilə bağlı daha da ciddi işləməlidir, yeni təkliflər verilməlidir. Bir daha demək istəyirəm, ən əsas məsələ ondan ibarətdir ki, gələn ilin büdcəsi balanslaşdırılmış, reallığı əks etdirən və lazımsız xərclərə yol verməyən bir büdcə olmalıdır".

BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu, Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**
E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

"Binəqədi" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**

# Fransa Prezidenti Fransua Olland ilə görüş



Sentyabrın 3-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Yelisey sarayında Fransa Prezidenti Fransua Olland ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olunub. Fransa Prezidenti Fransua Olland Mehriban Əliyevaya Parisdə təşkil olunan mədəniyyət tədbirlərində iştirakına görə minnətdarlıq edib. Ölkələrimiz arasında münasibətlərin böyük potensialının olduğunu deyən Fransua Olland Fransa ilə Azərbaycanın iqtisadiyyat, enerji, informasiya-kommunikasiya texnologiyaları, kosmik sənaye, kənd təsərrüfatı və digər sahələrdə uğurlu əlaqələr qurduğunu vurğulayıb. Fransanın Azərbaycan ilə əlaqələri genişləndirməkdə maraqlı olduğunu qeyd edən Fransua Olland ikitərəfli münasibətlərin gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini bildirib.

Mehriban Əliyeva Azərbaycan-Fransa əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsində olduğunu, münasibətlərin dərinləşdirilməsinin ölkəmizin xarici siyasətində mühüm istiqamət təşkil etdiyini vurğulayıb. Son illərdə Azərbaycanın Fransada daha yaxşı tanıdılması üçün bir çox layihələrin həyata keçirildiyini deyən Mehriban Əliyeva sentyabrın 3-də Parisdə reallaşan "Azərbaycan şəhərciyi"nin açılış mərasiminin də bu silsilədən olduğunu bildirib. Mehriban Əliyeva qeyd edib ki, bu cür mədəniyyət layihələri artıq Fransanın 25-ə yaxın regionunda baş tutub, Azərbaycanın və Fransanın 10-dan çox şəhəri dostluq və qardaşlıq əlaqələri qurub. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın roluna toxunan Mehriban Əliyeva ümidvar olduğunu bildirib ki, Fransa bu münaqişənin ölkəmizin ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həlli ilə bağlı mövqeyini davam etdirəcək.

Prezident Fransua Olland Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasında ölkəsinin mövqeyini ifadə edərək, Fransanın bu münaqişənin həllində maraqlı olduğunu vurğulayıb.

# Parisdə "Azərbaycan şəhərciyi" fəaliyyətə başlayıb




Sentyabrın 3-də Luvr muzeyinin qarşısındakı məşhur "Pale Royal" meydanında "Azərbaycan şəhərciyi"nin rəsmi açılışı olub. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak ediblər.

"Azərbaycan şəhərciyi" Parisdə artıq ikinci dəfədir fəaliyyətə başlayır. Şəhərciyin təşkilində əsas məqsəd Azərbaycanın xaricdə daha yaxşı tanıdılmasını, Fransada və onun paytaxtında bununla bağlı təbliğat xarakterli tədbirlərin davamlılığını təmin etməkdir.

Mərasimdə çıxış edən Mehriban Əliyeva bildirib ki, həm Paris sakinləri, həm də bu şəhərə gələn turistlər Azərbaycan şəhərciyində ölkəmiz haqqında dolğun məlumat ala biləcəklər. Şəhərciyin hazırlanmasında və layihənin həyata keçirilməsində əməyi olanlara minnətdarlığını bildirən Mehriban Əliyeva son illərdə təkcə Parisdə deyil, Fransanın digər şəhərlərində də Azərbaycanın mədəniyyət tədbirlərinin keçirildiyini və bunun böyük maraqla qarşılandığını vurğulayıb. Azərbaycanın Fransa ilə ikitərəfli münasibətlərə böyük önəm verdiyini qeyd edən Mehriban Əliyeva son illər bu münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkələrimizin bütün sahələrdə uğurlu əməkdaşlıq qurduğunu və bu əlaqələrin genişləndiyini bildirib.

Parisin 1-ci rayonunun meri Jan Fransua Löqare bildirib ki, Fransa paytaxtının mərkəzində, Luvr muzeyinin qarşısında belə yüksək səviyyəli tədbirin təşkili Azərbaycana marağı daha da artırır. Heydər Əliyev Fondunun bu işdəki fəaliyyətini yüksək qiymətləndirən mer bu cür tədbirlərin ölkələrimiz arasında mədəni mübadilənin daha da genişləndirilməsində mühüm rol oynadığını söyləyib.

Fransada Azərbaycanın Dostları Assosiasiyasının sədri Jan Fransua Mansel Mehriban Əliyevanı Heydər Əliyev Fondu tərəfindən təşkil olunan bu cür yüksək səviyyəli tədbirə görə təbrik edib. O, ölkəmizdə birinci Avropa Oyunlarının uğurla keçdiyini və bu idman tədbirinin Azərbaycanın qüdrətini bütün dünyaya nümayiş etdirdiyini vurğulayıb. Jan Fransua Mansel Prezident İlham Əliyevin və Oyunların Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın Avropanın həyatında mühüm hadisə olan bu idman bayramını keçirməklə böyük uğura imza atdıqlarını diqqətə çatdırıb.

Şəhərciklə tanışlıq zamanı qonaqlar Azərbaycan Dövlət Rəqs Ansamblının çıxışına baxıblar.

"Azərbaycan şəhərciyi"ndə ölkəmizin tarixi, mədəniyyəti, xalq sənətkarlığı, adət-ənənələri, milli mətbəxi təqdim olunur. "Azərbaycan Parisin ürəyində" adlanan şəhərcik özünəməxsus dizaynda qala divarlarının əhatəsində təşkil olunub. Şəhərcikdə Azərbaycan xalçaçılıq, dulusçuluq və digər sənətkarlıq məmulatlarının, milli geyim və musiqi alətlərinin geniş şəbəkəsi yer alıb. Qonaqlar bu sənət nümunələrinin yaradılma prosesini isə buradakı "Emalatxana" bölməsində yaxından izləyə bilirlər. Ölkəmizi təmsil edən sənətkarlar mis qab, şəbəkə, xalça və digər sənət nümunələri hazırlayaraq Azərbaycanın qədim və zəngin sənətkarlıq ənənələrini, onların incəliklərini qonaqlara təqdim ediblər.

Şəhərcikdə, həmçinin, Fransada yaşayan məşhur azərbaycanlı və ölkəmizdə yaşayan fransızların əsərlərindən ibarət fotosərgi təşkil olunub. "Azərbaycanlılar və fransızlar: tanışlıq tarixi" adlı bu sərgi ölkələrimizin və xalqlarımızın həyatını tərənnüm edir.

"Azərbaycan şəhərciyi"ndə milli mətbəximizi tərənnüm edən köşklər qurulub. Eyni zamanda, ölkəmizdə fəaliyyət göstərən müxtəlif yerli şirkətlərə aid köşklərdə milli şirniyyatlar, içkilər, xalq sənətkarlığı nümunələri təqdim olunub. Şəhərciyin qonaqları üçün, həmçinin, milli mətbəximizin ləziz xörəkləri hazırlanır. Burada Heydər Əliyev Fondunun müxtəlif sahələri əhatə edən nəşrləri təqdim edilib.

"Azərbaycan şəhərciyi"ndə quraşdırılmış səhnədə konsert proqramları da təşkil edilib.

# "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda konfrans

Sentyabrın 8-də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə həyata keçirilən "Azərbaycan Parisin ürəyində" adlı layihə çərçivəsində Fransanın paytaxtında "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda konfrans təşkil olunub. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva konfransda iştirak edib.

Konfransın aparıcısı görkəmli politoloq Pyer Konesa Fransa cəmiyyətində tolerantlıq mövzusunun hər zaman aktual olduğunu bildirərək Azərbaycan tərəfindən bu sahədə atılan addımların əhəmiyyətindən danışıb. O, Heydər Əliyev Fondunun Parisdə təşkil etdiyi konfransda həm Azərbaycanın, həm də Fransanın nüfuzlu din xadimlərinin və dini təşkilatların nümayəndələrinin iştirak etdiyini bildirib və burada aktual məsələlərin müzakirə olunacağını vurğulayıb.

Parisin 1-ci rayonunun meri Jan Fransua Löqare bu gün dünya gündəmində tolerantlıq mövzusunun daha aktual olduğunu bildirib. O, dünyəvi məsələ olan bu mövzuya Azərbaycanın göstərdiyi marağın nümunəvi xarakter daşıdığını diqqətə çatdırıb.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva konfransda çıxış edərək ölkəmizin tarix boyu sivilizasiyaların və mədəniyyətlərin qovuşuğunda yerləşdiyini, Asiya ilə Avropa arasında körpü olduğunu və bu amillərin mədəniyyət müxtəlifliyinin yaranmasında mühüm rol oynadığını bildirib. "Tolerantlıq ənənələri bizim ölkədə indi də yaşayır. Azərbaycan həm İslam Konfransı Təşkilatının, həm də Avropa Şurasının üzvüdür. Biz mədəni və tarixi irsimizlə fəxr edirik", – deyən Mehriban Əliyeva Azərbaycanda məscidlərin, kilsələrin və sinaqoqların mövcudluğuna diqqəti çatdırıb və ölkəmizdə bütün dini azadlıqların təmin edildiyini bildirib: "Azərbaycanda bütün dinlərin nümayəndələri eyni hüquqa malikdirlər, heç vaxt ölkəmizdə dini, milli zəmində heç bir qarşıdurma baş verməyib. Ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasında dövlət-din münasibətləri mühüm rol oynayır, Azərbaycanda yaradılan şərait onu deməyə əsas verir ki, multikulturalizmin alternativi yoxdur".

Rəhbərlik etdiyi Heydər Əliyev Fondunun digər dinlərə də xüsusi diqqət göstərdiyini deyən Mehriban Əliyeva Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkilində, Romada katakombaların bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində Fondun yaxından iştirak etdiyini bildirib.

Mehriban Əliyeva çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunub. Bu münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu, 1 milyon insanın qaçqın və məcburi köçkünə çevrildiyini, Xocalıda 613 azərbaycanlının vəhşicəsinə qətlə yetirildiyini, milli və tarixi abidələrimizin dağıdıldığını diqqətə çatdırıb. Azərbaycanın birinci xanımı ölkəmizin gələcəkdə də ümumbəşəri dəyərlərə öz töhfəsini verməkdə davam edəcəyini vurğulayıb.

Sonra konfrans öz işini diskussiyalar şəklində davam etdirib. Qeyd olunub ki, Azərbaycanda müxtəlif xalqların birgə yaşamaq qaydası, müxtəlif dinlərə münasibət, digər ölkələrlə müqayisədə dini təriqətlərə fərqli baxış, cəmiyyətdə tolerantlıq mühitinin qorunması kimi məsələlərin müzakirəyə cəlb edilməsi daha aktualdır.

Fransa Yəhudi Təsisatları Əlaqələndirmə Şurasının nümayəndəsi Jan Pyer Alali bir müddət əvvəl ölkəmizə səfər etdiyini, Azərbaycanda gördüklərindən böyük təəssürat aldığını, ölkəmizdə etiqad sərbəstliyinin, yəhudi icmasına göstərilən münasibətin yüksək səviyyədə olduğunu konfrans iştirakçılarının diqqətinə çatdırıb. Diskussiyaya qoşulan digər iştirakçılar ölkəmizdə dinlərarası münasibətlərin tənzimlənmə qaydaları, orta məktəblərdə dinin tədrisi və digər məsələlərlə bağlı suallar veriblər.

Qeyd olunub ki, Azərbaycanda dinlərarası münasibətlərdə heç bir problem yoxdur və bu, əsrlərdir ki, davam edir. Azərbaycanın birinci xanımı ölkəmizdəki tolerantlıq mühitinin əsasında duran mühüm amillərdən danışarkən, ilk növbədə, siyasi sabitliyi, sosial və iqtisadi inkişafı ön plana çəkib. Qeyd edib ki, Azərbaycanda sosial problemlər uğurla həll olunur, təhsil sektorunun inkişafına xüsusi diqqət göstərilir və bu da özlüyündə cəmiyyətdə radikal meyillərin yaranmamasına şərait yaradır. "Biz dünyaya çatdırmaq istəyirik ki, birgə yaşayış mümkündür", – deyən Mehriban Əliyeva Azərbaycanın bu təcrübəsinin bütün dünyada geniş təbliğ olunmasının vacibliyini vurğulayıb.

Fransa Müsəlmanları Şurasının vitse-prezidenti Tofiq Septi ölkəmizdəki tolerantlıq mühitinin onda böyük maraq doğurduğunu, bunun canlı şahidi olmaq istədiyini bildirib.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva bir daha konfrans iştirakçılarına minnətdarlıq edib və bildirib ki, belə tədbirlər xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır. Mehriban Əliyeva konfransın 2-ci hissəsinin gələcəkdə Bakıda keçirilməsi təklifi ilə çıxış edib.

# Gənclərin II Liderlik Məclisi uğurla başa çatıb

Sentyabrın 2-dən 7-dək "Binəqədi Gənclərinin II Liderlik Məclisi" layihəsi həyata keçirilib. Layihədə iştirak etmək üçün Binəqədi rayonunda yaşayan, oxuyan və işləyən 300-ə yaxın gənc ərizə ilə müraciət edib. Müsahibə mərhələsinə dəvət olunan 180 nəfərdən yalnız 35 nəfəri layihədə iştirak hüququ qazanıblar.



Sentyabrın 2-də gənclərin Şəmkir və Gədəbəy rayonlarına yola salınması mərasimi keçirilib. Tədbirdə iştirak edən Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətindən danışıb və bu siyasətin Binəqədi rayonunda da yüksək səviyyədə aparıldığını vurğulayıb. O, rayon gənclərinin problemlərinin daim diqqət mərkəzində saxlanıldığını qeyd edib. RİH başçısının müavini Şəmkir rayonuna yola düşən gənclərə qarşıdakı 4 gün ərzində uğurlu istirahət arzulayaraq təlimlərdən yararlanmağı tövsiyə edib.

Layihə iştirakçıları və təşkilatı komanda sentyabrın 3-də Şəmkir rayonuna gələrək, burada Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar, sonra Heydər Əliyev Mərkəzini, Bayraq Meydanını, "Zəka" Gənclərin İntellektual İnkişaf və Yaradıcılıq Mərkəzini ziyarət edərək "Parlaq Zəka" oyunlarının çəkilişlərində iştirak ediblər. Daha sonra Binəqədi Rayon Gənclər və İdman İdarəsi ilə Şəmkir Rayon Gənclər və İdman İdarəsi arasında əməkdaşlıq Memorandumu imzalanıb.




İştirakçılar təlimçi Əligül Ağayevin təqdimatında şəxsi və işgüzar imicin yaradılması, mühitə uyğunlaşma, natiqlik bacarığının gücləndirilməsi, layihə yazılması, liderlik təlimlərində iştirak ediblər. Layihə çərçivəsində gənclər Şəmkir rayonunda "Şərq ulduzu" şərab zavodu, "S-buket" gül istixanası, "Natura" su zavodu, çörək zavodu ilə tanış olub, bir sıra tarixi əhəmiyyətli abidələri ziyarət ediblər.

Layihə iştirakçıları, eyni zamanda, Gədəbəy rayonuna səfər edərək Aşıqlar Evi ilə tanış olublar. Səfər zamanı Binəqədi Rayon Gənclər və İdman İdarəsi ilə Gədəbəy Rayon Gənclər və İdman İdarəsi arasında əməkdaşlıq Memorandumu imzalanıb. Daha sonra gənclər Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Yediyarovla görüşüblər.

Layihənin bağlanış mərasimi isə sentyabrın 6-da Şəmkir şəhərində baş tutub. Tədbirdə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov və Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva da iştirak ediblər. Tədbir Binəqədi və Şəmkir gənclərinin hazırladığı konsert proqramı və atəşfəşanlıqla davam etdirilib.

# Seçkilərə hazırlıqla bağlı rayon qərargahı yaradılıb

MAİL AĞAXANOV

Noyabr ayında ölkəmizdə keçiriləcək növbəti parlament seçkiləri ilə bağlı hazırlıq işləri uğurla davam etdirilir. Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının rayon şöbələrinin parlament seçkilərinə hazırlıqla əlaqədar Fəaliyyət Proqramına uyğun olaraq, Binəqədi rayon təşkilatı tərəfindən ilkin tədbirlər həyata keçirilib.

YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşovun verdiyi məlumata görə, partiyanın Mərkəzi Seçki Qərargahının tapşırıq və tövsiyələri əsasında seçkilərə hazırlıq işləri uğurla davam etdirilir: "Bu tapşırıq və tövsiyələrə uyğun olaraq, YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsi yaradılıb. Qərargahın rayon təşkilatının ziyalılarından, ictimai-siyasi xadimlərindən və nüfuzlu şəxslərindən ibarət 19 nəfərlik tərkibi təsdiq edilib. Seçki qərargahının üzvlərinin iştirakı ilə YAP Binəqədi rayon təşkilatının inzibati binasında ilk yığıncaq keçirilib, qərargah üzvləri üçün vəzifə bölgüsü aparılıb. Qərargah üzvlərinin iştirakı ilə geniş müzakirələr formatında keçirilən iclasda bir sıra məqamlara aydınlıq gətirilib". Bildirilib ki, iclasda çıxış edən seçki qərargahının üzvləri rayon ərazisində seçici fəallığının təmini və YAP namizədlərinin təbliğatının yüksək səviyyədə qurulmasının vacibliyini qeyd ediblər. Sədr hazırda rayon qərargahının geniş Fəaliyyət Planının hazırlandığını vurğulayıb: "Fəaliyyət Planında YAP-ın elektoratı ilə işin daha mütəşəkkil və operativ qurulması məqsədilə seçici siyahılarını dəqiqləşdirmək, seçicilər arasında maarifləndirmə işləri aparmaq, ilk dəfə səs verəcək seçicilərlə görüşlər keçirmək, seçkiqabağı təbliğatı aparmaq üçün səmərəli variantlar nəzərdə tutulub. Eyni zamanda, müxtəlif sosioloji sorğular və tədqiqatlar aparmaq, YAP-ın nüfuzlu ziyalılarından ibarət təbliğat qrupları yaratmaq və digər geniş və əhatəli tədbirlər həyata keçirmək planlaşdırılıb".



R.Göyüşov bildirib ki, YAP Binəqədi rayon təşkilatı namizədliyi irəli sürüləcək şəxslərin imzatoplama kampaniyasında iştirak edəcək partiya fəallarının siyahısını dəqiqləşdirərək partiyanın İcra Katibliyinə təqdim edib: "İmzatoplama kampaniyasında 30 nəfər partiya fəalından ibarət qrup çalışacaq. Avqustun 18-də həmin tərkiblə görüş keçirilib və onlara seçki qanunvericiliyi və imzatoplama kampaniyası ilə bağlı ətraflı məlumat verilib, YAP-ın Seçki Qərargahından nümunə üçün verilən imza vərəqələri və təlimat təqdim olunub. Qeyd olunanlarla yanaşı, imzatoplama ilə əlaqədar təlim də keçirilib".

Görüş geniş fikir mübadiləsinin aparılması ilə davam etdirilib. Müzakirələr zamanı bildirilib ki, Binəqədi rayonu ərazisində fəaliyyət göstərən 3 müstəqil (8 saylı, 9 saylı, 10 saylı) və 1 müştərək (12 saylı Qaradağ-Binəqədi-Yasamal) seçki dairələri üzrə qanunvericiliyin tələblərinə uyğun olaraq bir sıra işlər görülüb. Seçici siyahılarının dəqiqləşdirilməsi, məntəqə seçki komissiyalarının tərkibinin formalaşdırılması, həmin komissiyalarda fəaliyyət göstərən şəxslər üçün müxtəlif treninqlərin təşkili məqsədilə işlər aparılıb. Qeyd olunub ki, 8 saylı Binəqədi I Seçki Dairəsi üzrə seçicilərin sayı 46 min 835, 9 saylı Binəqədi II Seçki Dairəsi üzrə 48 min 053, 10 saylı Binəqədi III Seçki Dairəsi üzrə isə 47 min 766 nəfər təşkil edir.

# Yüksək bal toplayan gənclərlə görüş

MAİL

Yeni Azərbaycan Partiyası (YAP) Binəqədi rayon təşkilatının inzibati binasında Rəsulzadə qəsəbə gənclər təşkilatı ərazi ilk partiya təşkilatının gəncləri ilə görüş keçirilmişdir. Tədbirdə YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosasiyasının sədri, M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri Hümbət Hüseynov, təşkilatın Gənclər Birliyinin sədri Mahmud Məmmədzadə, Aparat rəhbəri Sevinc Abdullayeva, "Rəsulzadə qəsəbə Gənclər Təşkilatı" ərazi ilk partiya təşkilatının sədri Elnar Alməmmədov, habelə qəsəbənin ali məktəblərə keçirilən qəbul imtahanlarında yüksək bal toplayan gənclər və onların valideynləri iştirak etmişlər.



Görüşdə giriş nitqi ilə çıxış edən Gənclər Birliyinin sədri Mahmud Məmmədzadə tədbirin məqsəd və məramı haqqında məlumat verdikdən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən gənclər siyasətindən, habelə Binəqədi rayonunda bu sahədə görülən işlərdən, reallaşdırılan layihələrdən danışmışdır. M.Məmmədzadə çıxışının sonunda qəsəbə gənclərini fəal olmağa və rayonun, eləcə də ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etməyə çağırmışdır.

Sonra Elnar Alməmmədov sədrlik etdiyi gənclər təşkilatının gördüyü işlər barədə məlumat vermiş, habelə qəsəbə gənclərinin təşəbbüsü və YAP Binəqədi rayon təşkilatının dəstəyi ilə həyata keçirilən layihələrdən söz açmışdır. O, Gənclər Birliyinin üzvləri tərəfindən müxtəlif mövzuları əhatə edən və gənclərin böyük marağına səbəb olan layihələrin müvəffəqiyyətlə reallaşdırıldığını söyləmişdir. Bu cür layihələrin davamlı olacağını deyən natiq qəsəbə gənclərinin fəallığının artırılması və onların ictimai-siyasi proseslərə uğurlu inteqrasiyası üçün bütün gücləri səfərbər edəcəklərini vurğulamışdır.

Görüşdə çıxış edən gənclər təşkilatının üzvü, M.Ə.Rəsulzadə qəsəbə bələdiyyəsinin komissiya sədri Rüfət İsayev onlara göstərilən diqqət və qayğıdan bəhs etmiş, bunun üçün partiya rəhbərliyinə təşəkkürünü bildirmişdir.

Gənclər təşkilatının fəal üzvü Sara Qurbanlı çıxışında daun sindromlu gənclərlə görüşün təşkil olunması təklifini irəli sürmüşdür. O, sağlam gəncliyin ölkənin gələcəyinin təminatı olduğunu vurğulayaraq, bu xəstəlikdən əziyyət çəkən həmyaşıdlarının cəmiyyətə adaptasiyası məqsədilə müəyyən tədbirlərin görülməsinə ehtiyac olduğunu bildirmişdir.

Görüşdə yekun nitq söyləyən Ramiz Göyüşov gənclərlə bu cür görüşlərin keçirilməsinin vacibliyini vurğulayaraq qeyd etmişdir ki, bu gün Binəqədi rayon gəncləri öz fəallıqları ilə seçilir və müxtəlif maraqlı layihələrin, tədbirlərin təşəbbüskarı kimi çıxış edirlər. O, Milli Məclisə keçiriləcək seçkilərə toxunaraq, gənclərin bu mühüm siyasi kampaniyada fəal iştiraklarının zəruriliyini diqqətə çatdırmışdır. Təşkilat sədri gəncləri istər ictimai-siyasi proseslərdə, istərsə də sosial şəbəkələrdə fəal olmağa, ölkəmizin və YAP-ın mənafeyinin müdafiəsində əzmlə dayanmağa çağırmışdır.

Görüşdə, həmçinin, yüksək bal toplayan gənclər də çıxış etmişlər. Elmira Həşimova, Pakizə Paşayeva, Rafiq Cabbarov və başqaları təhsillərində daim irəli gedəcəklərini, fəal olacaqlarını bildirmiş, habelə ölkəmizin haqlı mövqeyinin müdafiəsi istiqamətində həyata keçirilən işlərə dəstək verəcəklərini vurğulamışlar.

Sonda ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış, eləcə də ilk dəfə səsvermə hüququ qazanmış gənclərə M.Ə.Rəsulzadə bələdiyyəsi adından qiymətli hədiyyələr təqdim olunmuşdur.

# Seçkilərə hazırlıq tədbirləri müzakirə olunub

SİYAVUŞ ƏMİRLİ

Azərbaycanda növbəti parlament seçkilərinə 2 aydan bir qədər az vaxt qalır. Artıq ölkəmizdə seçki fəallığı müşahidə olunmaqdadır. Müxtəlif siyasi partiya və təşkilatlar seçki marafonuna başlamaq ərəfəsindədirlər. Binəqədi rayonu da qarşıdan gələn seçkilərə ciddi şəkildə hazırlaşır. Bu məqsədlə yerlərdə müxtəlif tədbirlər keçirilir, əhali arasında maarifləndirmə işləri aparılır.

Parlament seçkiləri ilə bağlı Binəqədi Rayon Ağsaqqallar Şurasının keçirdiyi tədbir də bu qəbildən idi.

Seçki ərəfəsində qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan yığıncaqda Binəqədi Rayon Ağsaqqallar Şurasının sədri Akif Rəfiyev, qurumun İdarə Heyətinin üzvləri – Cahangir Qocayev, Həmid Mehdiyev, Aydın Alıyev, Füzuli İsmayılzadə, Nəbi Muxtarov, Loğman Əliyev və Akif Nəbiyev iştirak edirdilər.



İclası giriş sözü ilə açan Akif Rəfiyev ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və bu gün müasir şəraitə uyğun uğurla davam etdirilən məqsədyönlü daxili və xarici siyasət kursunun ölkə vətəndaşları arasında geniş təbliğ edilməsi, əhalinin bütün təbəqələrinin Azərbaycan Prezidentinin ətrafında sıx birləşməsi, həmçinin yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması sahəsində Ağsaqqallar Şurasının üzərinə düşən vəzifələri diqqətə çatdırdı: "2015-ci ilin sonuna yaxın çox əlamətdar bir hadisəyə şahidlik edəcəyik. Azərbaycan xalqı növbəti 5 il üçün öz millət vəkillərini seçəcək. Bu ümummilli tədbirin keçirilməsində Ağsaqqallar Şurasının da üzərinə böyük vəzifələr düşür".

Binəqədi rayonunda Ağsaqqallar Şurasının fəaliyyətini daha da canlandırmağın, gənclər arasında tərbiyəvi işlərin miqyasını genişləndirməyin vacibliyini vurğulayan A.Rəfiyev bildirdi ki, Azərbaycan xalqının seçkilərdə öz iradəsini sərbəst şəkildə ifadə etməsi, ölkəyə layiqli millət vəkilləri seçmək haqqına sahib olması demokratiyanın və müstəqil dövlətçilik məfkurəsinin əsas göstəricisidir: "Zaman dəyişir, hər bir dövrün öz tələbləri, çağırışları var. Təbii ki, yeniləşmə insanların düşüncələrində də özünü qabarıq şəkildə büruzə verir. Yeniliyi, müasirliyi yüksək dəyərləndirən Azərbaycan gəncləri seçkilərin yüksək fəallıq şəraitində keçməsi üçün ciddi səylər göstərməli, ən layiqli namizədlərin qələbəsini təmin etmək üçün qanunauyğun şəkildə öz hüquqlarından səmərəli istifadə etməlidirlər. Buna görə biz də üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməli, gənclərə bu istiqamətdə dəstək olmalıyıq".

Ağsaqqallar Şurasının sədr müavini Cahangir Qocayev isə bildirdi ki, seçki ərəfəsində qarşıda duran əsas vəzifə əhalinin seçki fəallığının artırılması, səsvermənin kütləviliyinin təmin edilməsidir.

Tədbirin sonunda görüləcək işlərə bağlı müzakirələr aparıldı, rəy və təkliflər dinlənilərək müvafiq qərar qəbul olundu.

№35 (129) BİNƏQƏDİ

# Parlament seçkilərinə hazırlıq işləri davam edir

MƏHƏBBƏT ORUCOV
MAİL AĞAXANOV

**Bu ilin noyabr ayında ölkəmizdə keçiriləcək növbəti parlament seçkiləri ilə bağlı hazırlıq işləri uğurla davam etdirilir. Bununla əlaqədar YAP Binəqədi rayon partiya təşkilatının inzibati binasında yerləşən Mərkəzi Seçki Qərargahının rayon şöbəsində mütəmadi olaraq ərazi ilk partiya təşkilatları, şura və idarə heyətinin üzvləri ilə davamlı keçirilən görüşlərdə seçkilərə hazırlıq işləri müzakirə edilir, seçki prosesi və onun müxtəlif mərhələləri hərtərəfli şəkildə tədqiq olunur.**

**V çağırış Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı rayonda görülən işlərə YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov qəzetimizə verdiyi müsahibəsində aydınlıq gətirib.**

***– Ramiz müəllim, noyabrın 1-də ölkəmizdə keçiriləcək növbəti parlament seçkilərinə hazırlıq işlərinə başlanılıb. Bu istiqamətdə rayonda görülən işlər barədə məlumat verərdiniz...***

– Bildiyiniz kimi, ötən ayın 28-də dövlət başçısı İlham Əliyev V çağırış Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər 2015-ci il noyabrın 1-nə təyin edilib. Ölkə başçısının icra strukturlarından, seçki prosesində iştirak edən təşkilatlardan daim tələbi ondan ibarətdir ki, seçkilər demokratik, şəffaf keçirilsin, hər hansı formada qanunsuz müdaxilələr olmasın. Biz də iqtidar partiyası olaraq, çalışırıq ki, seçkilər maksimum dərəcədə şəffaf və demokratik keçirilsin.

Parlament seçkilərinə hazırlıqla əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının rayon şöbələrinin Fəaliyyət Proqramına uyğun olaraq, Binəqədi rayon təşkilatı tərəfindən də ilkin mərhələdə müəyyən tədbirlər həyata keçirilib. Yeni Azərbaycan Partiyasının İcra Katibliyinin tapşırıq və tövsiyələrinə əsasən, hazırlıq işlərinə start verilib və bu işlər indi də uğurla davam etdirilir. Qərargahın rayon təşkilatının ziyalılarından, ictimai-siyasi xadimlərindən və nüfuzlu şəxslərindən ibarət 19 nəfərlik tərkibi təsdiq edilib. Seçki qərargahının üzvlərinin iştirakı ilə YAP Binəqədi rayon təşkilatının inzibati binasında ilk yığıncaq keçirilib və qərargah üzvləri arasında vəzifə bölgüsü aparılıb. Seçkilərdə təbliğat-təşviqat kampaniyasını aparmaq üçün qruplar yaradılıb, şöbənin Fəaliyyət Planı müzakirə edilərək təsdiq olunub. Geniş müzakirə formatında keçirilən iclasda bir sıra məqamlara aydınlıq gətirilib. Məlumdur ki, Yeni Azərbaycan Partiyasının böyük seçki təcrübəsi var, bu baxımdan, təsadüfi deyil ki, 1993-cü ildən ötən müddət ərzində ölkəmizdə keçirilən bütün prezident, parlament və bələdiyyə seçkilərinin qalibi məhz YAP olub.

Təbii ki, bu uğurlardan YAP-ın Binəqədi təşkilatına da pay düşür. Həm 2013-cü ildə keçirilmiş prezident, həm də ötən il keçirilmiş bələdiyyə seçkilərində rayonumuzda yaxşı nəticələr əldə olunub. Prezident seçkisində öncül yerlərdən birini tutduq. Bu da Binəqədi seçicilərinin ölkə başçısına olan inamından irəli gəlir. Bələdiyyə seçkisi də yüksək səviyyədə keçirildi. Bu seçkilərdə gənclərimiz daha fəal iştirak etdilər. Bələdiyyə üzvlüyünə seçilənlər arasında qadınların üstünlük təşkil etməsini xüsusi qeyd etmək istərdim. 79 bələdiyyə üzvündən 59-u YAP-ın üzvüdür. Bu gün bələdiyyə üzvlüyünə seçilən 79 nəfərdən 45-i 35 yaşa qədər olan gənclərdir. Bütün bu uğurlar rayonda aparılan işlərin məntiqi nəticəsidir. Bu qələbələr YAP-ın cəmiyyətdəki yerinin möhkəm olduğunu, həmçinin dövlətçiliyimizin möhkəmləndirilməsi, ölkəmizin inkişafı istiqamətində həyata keçirilən proqramların nəticəsi olaraq, xalqın bu siyasi qüvvəyə böyük etimad göstərdiyini təsdiq edir.

Azərbaycanın bugünkü inkişafı ulu öndər Heydər Əliyev ideyaları ilə bağlıdır. Partiyamız bu ideyaların ən fəal təbliğatçısıdır. Ötən müddət ərzində partiyamız böyük bir inkişaf yolu keçib. Bu gün Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişafının yeni mərhələsini yaşayır. YAP üzvləri Azərbaycanın inkişafı prosesində fəal rol oynayırlar. Partiyamızın sədri, Prezident İlham Əliyevin vurğuladığı kimi, Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanda, bütövlükdə regionda ən böyük siyasi qüvvədir. Əminik ki, partiyamız ölkəmizin avanqard, yenilikçi siyasi qüvvəsi olaraq bu mövqeyini qoruyacaq və daha da gücləndirəcək. Düşünürəm ki, bu amil növbəti parlament seçkilərində özünü bir daha göstərəcək.

Hüquqi dövlət kimi ölkəmizdə demokratik seçki sistemi formalaşıb, mükəmməl seçki qanunvericiliyi mövcuddur və bu hüquqi baza beynəlxalq standartlara tam uyğundur. Məhz bunun nəticəsidir ki, Azərbaycanda ildən-ilə seçki təcrübəsi təkmilləşdirilir və demokratik, şəffaf seçkilər keçirilir.



***– Yeni Azərbaycan Partiyasından irəli sürülən namizədlərin imzatoplama kampaniyası necə təşkil ediləcək?***

– Seçici imzalarının toplanması seçki prosesində bir mərhələdir. Müstəqil namizədlər bunu özləri təşkil edirlər, siyasi partiyaların namizədləri üçün imzatoplama kampaniyasını isə partiya həyata keçirir. YAP-ın rayon təşkilatı olaraq Binəqədi rayonundan Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən şəxslər üçün imzatoplama kampaniyasını biz həyata keçirəcəyik. YAP-ın İcra Katibliyinin tapşırıq və tövsiyələrinə uyğun olaraq, təqribən 1 ay bundan əvvəl bu prosesə hazırlığımızı təmin etmişik. Seçki Məcəlləsinə əsasən, hər namizəd üçün 450 imza toplanmalıdır. Biz hər bir namizədə 450 imza toplamaq üçün 10 nəfər şəxs ayırmışıq. Mərkəzi Seçki Qərargahı tərəfindən YAP-ın namizədləri üçün imzatoplama prosesinə start verilsə, biz bunu sürətlə həyata keçirəcəyik. Artıq imza toplayacaq şəxslərlə treninqlər keçirilib. Eyni zamanda, bu şəxslər əvvəlki seçkilərdə imzatoplama prosesində iştirak etmiş təcrübəli insanlardır. Əgər bu gün YAP-ın Mərkəzi Aparatı tərəfindən namizədlər təqdim olunsa, biz dərhal bu işə başlayacaq və qısa müddət ərzində prosesi başa çatdıracağıq.

***– Seçki kampaniyalarında gənclərin geniş şəkildə təmsil olunması artıq ənənə halını alıb. Bəs bu seçkilərdə Binəqədi rayon təşkilatında gənclərlə iş necə qurulub?***

– Yeni Azərbaycan Partiyasının sədri, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı təmin edilib. Respublikamızın beynəlxalq nüfuzu artıb, ölkədə aparılan islahatlar daha da dərinləşib. Bütün bu uğurların qazanılmasında, sözsüz ki, Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi, ölkəmizin aparıcı partiyası olan Yeni Azərbaycan Partiyası da mühüm rol oynamışdır. YAP-ın sıralarında gənclər böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir. Partiyamızın 650 mindən artıq üzvü var və onların 40 faizini gənclər təşkil edir. Ümumiyyətlə, YAP hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib. Ulu öndərin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP-ın fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi bu gün də Azərbaycan gənclərinin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatında onların rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunması xüsusi diqqət mərkəzindədir. Görülən effektiv tədbirlərin nəticəsidir ki, hazırda dövlət orqanlarında, bələdiyyə qurumlarında çalışan gənc kadrların sayı hiss olunacaq dərəcədə artır. Gənclərin daim irəli çəkilməsi onların dövlət idarəçiliyinə fəal cəlb olunması deməkdir.

YAP Gənclər Birliyi bu gün də istedadlı, cəmiyyətə və dövlətə xidmət etmək istəyən gəncləri öz ətrafında birləşdirməklə yanaşı, yeni nəslin hərtərəfli inkişafı, onlarda vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin aktiv ictimai fəaliyyətə cəlb olunması və digər istiqamətlərdə işlər görür. Gənclər bütün seçkilərdə fəal iştirak ediblər. YAP Binəqədi rayon təşkilatı da demək olar ki, gənclərdən təşkil olunub.

***– YAP Binəqədi rayon təşkilatı ərazi ilk partiya təşkilatları ilə münasibətlərini hansı səviyyədə qurur və onların fəaliyyətini necə qiymətləndirmək olar?***

– Binəqədi rayon təşkilatı partiyanın ilk on rayon təşkilatından biridir. Bakı şəhəri üzrə isə birinci rayon təşkilatlarındandır. Binəqədi rayon təşkilatı 23 illik şərəfli bir yol keçib. Rayon təşkilatını yaradan insanlar həmin dövrdə hər cür çətinliklərə sinə gərərək əzmkarlıq nümayiş etdiriblər. Bu gün – parlament seçkiləri ərəfəsində rayon təşkilatının işi də yüksək səviyyədə təşkil olunub.

Biz əvvəlki seçkilərdən fərqli olaraq, bu il ərazi ilk partiya təşkilatlarına daha çox önəm verəcəyik. Bu seçkidə "Bir ərazi partiya təşkilatı – bir seçki məntəqəsi" prinsipi üstün tutulur. YAP Binəqədi rayon təşkilatında Heydər Əliyev ideyalarına sadiq, minlərlə əqidəli insan birləşib. YAP Binəqədi rayon təşkilatının 15 mindən çox üzvü var. Bu, böyük bir qüvvədir. Biz YAP-ın bütün üzvlərini bu seçki prosesinə fəal seçici kimi cəlb etmək istəyirik. Partiyanın rayon təşkilatının 213 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərir. Bu təşkilatların hər birində gənclər birlikləri, qadınlar şuraları fəaliyyət göstərir. Bundan əlavə, bunların hər birinin idarə heyəti və sədrləri var. Məqsədimiz bu gücdən səmərəli istifadə etməkdir. Əvvəlki seçkilərdə biz alt-qərargahlar yaradırdıq. Builki parlament seçkilərində bundan imtina etdik. Bu seçkilərdə biz daha çox üstünlüyü ilk partiya təşkilatlarına verəcəyik. Belə ki, bir ərazi ilk partiya təşkilatı 1-2, bəzən də 3 məntəqəyə təkim olunacaq.




YAP-ın fəallarından əlavə, biz seçki prosesində rayon ağsaqqallarından, ziyalılardan və insanlar arasında nüfuzu olan şəxslərin gücündən də istifadə edəcəyik. YAP-ın elektoratı ilə işi daha mütəşəkkil və operativ qurmaq məqsədilə seçici siyahılarını dəqiqləşdirmək, seçicilər arasında maarifləndirmə işləri aparmaq, ilk dəfə səs verəcək seçicilərlə maarifləndirici görüşlər keçirmək, seçkiqabağı təbliğatı aparmaq üçün digər səmərəli variantlar da işlənib hazırlanıb. Eyni zamanda, müxtəlif sosioloji sorğu və tədqiqatlar aparmaq, YAP-ın nüfuzlu ziyalılarından ibarət təbliğat qrupları yaratmaq və digər geniş, əhatəli tədbirlər həyata keçirmək nəzərdə tutulub.

Bütövlükdə, YAP Binəqədi rayon təşkilatı öz fəaliyyətini partiyanın proqram və nizamnaməsinə uyğun şəkildə qurub. Biz öhdəmizə düşən vəzifələri layiqincə yerinə yetirməklə partiya rəhbərliyinin etimadını doğrultmağa çalışırıq. Xüsusilə seçki kampaniyaları dövründə bütün qüvvə və bacarığımızı partiyamızın qələbəsini təmin etməyə istiqamətləndiririk.

***– Seçkilərdə iştirak etmək istəyən bir sıra siyasi partiyalar öz namizədlərini açıqlayıb. Bəs YAP öz namizədlərini niyə açıqlamır? Bu prosesdə YAP gecikmir ki?***

– Namizədlərini açıqlayan siyasi partiyaların sayı o qədər də çox deyil. Biz gecikmirik. Sentiyabr ayının 12-nə kimi Yeni Azərbaycan Partiyası öz namizədlərinin adlarını açıqlayacaq. Buna partiyanın İdarə Heyəti qərar verir. Hesab edirəm ki, YAP-ın kifayət qədər namizəd korpusu var. Yaxın günlərdə partiyanın İdarə Heyəti öz qərarını ictimaiyyətə açıqlayacaq.

***–YAP Binəqədi rayon təşkilatı Milli Məclisə keçiriləcək seçkilərə hazırlıq məqsədi ilə partiyanın müşahidəçi korpusunun formalaşdırılması istiqamətində hansı tədbirləri həyata keçirir?***

–YAP Binəqədi rayon təşkilatı bu istiqamətdə işlərini tam yekunlaşdırıb. Təşkilatın fəal üzvlərindən, eləcə də rayonun ictimai-siyasi proseslərində yaxından iştirak edən şəxslər seçkilərdə YAP-ın müşahidəçisi qismində iştirak edəcəklər. Eyni zamanda, bu ilki seçkilərdə YAP fəalı olan, fiziki qüsurlu, lakin sağlam düşüncəli insanlar da cəlb olunublar. Onların hərəkət qabiliyyətinin məhdud olmalarına baxmayaraq Yeni Azərbaycan Partiyasının sədri, ölkə Prezidenti cənab İlham Əliyevin siyasətini dəstəkləyən və ictimai-siyasi proseslərdə yaxından iştirak etmək əzmində olan insanlardır. Onu da qeyd edim ki, YAP-nın müşahidəçi korpusu ilə bağlı müvafiq sənədlər tam hazırdır. Həmin sənədlər qanunvericiliyə uyğun olaraq Dairə Seçki Komissiyalarına (DSK) təqdim olunacaqlar.

***– Bu seçkilərdə daha hansı ilkə imza atmaq istəyirsiniz?***

– Bu seçki prosesinə fiziki qüsuru olan savadlı, sağlam düşüncəli insanları da cəlb etmək fikrindəyik. Onlar bu proseslərdə iştirak etməkdə maraqlıdırlar. Bununla bağlı bir sıra əlillər cəmiyyətlərinin sədrləri və onların üzvləri ilə görüşlərimiz olub. Məqsədimiz həmin şəxsləri seçki prosesinin izlənilməsinə cəlb etməkdir.

***– Seçki məntəqələrində vəziyyət nə yerdədir?***

– Binəqədi rayonu ərazisində fəaliyyət göstərən 3 müstəqil (8 saylı, 9 saylı, 10 saylı) və 1 müştərək (12 saylı Qaradağ-Binəqədi-Yasamal) seçki dairələri üzrə qanunvericiliyin tələblərinə uyğun olaraq bir sıra işlər görülüb. İstər seçici siyahılarının dəqiqləşdirilməsi, məntəqə seçki komissiyalarının tərkibinin formalaşdırılması, həmin komissiyalarda fəaliyyət göstərən şəxslər üçün müxtəlif treninqlər təşkil edilib.

Ümumilikdə, Binəqədi rayonunda 114 məntəqə fəaliyyət göstərir. 2013-cü ildə keçirilən prezident seçkisindən başlayaraq məntəqələrin təmiri, yeni məntəqələrin tikilməsi rayon rəhbərliyinin xüsusi diqqət mərkəzindədir. Daha dəqiq desək, bu sahədə Binəqədi rayon rəhbərliyi tərəfində çox böyük işlər görülüb. Məlum məsələdir ki, seçki məntəqələrini lazımi inventarla Mərkəzi Seçki Komissiyası təmin edir. Amma elə işlər var ki, bunu rayon icra hakimiyyəti həyata keçirir. Bütün bu işlər həm də seçici aktivliyinin təmin olunmasına xidmət edir.

# "SMX-1646" fəaliyyətini uğurla davam etdirir

MAİL AĞAXANOV

Yerli icra hakimiyyəti orqanları arasında ilk dəfə Binəqədi Rayon İcra Hakimiyyətində yaradılmış "Sakinlərin Müraciət Xidməti – 1646" (SMX) vətəndaşların böyük rəğbətini qazanıb. Xatırladaq ki, xidmətin yaradılmasında məqsəd rayon sakinlərinin üzləşdiyi problemlərin həlli istiqamətində operativ tədbirlər həyata keçirmək, vətəndaşlara göstərilən xidmətlərin səviyyəsini yüksəltməkdir. Bu məqsədlə xidmətə daxil olan zənglər operativ surətdə qeydə alınaraq cavablandırılır və icraya yönəldilir. Rayon sakinləri yazılı müraciət etmədən və icra hakimiyyətinə gəlmədən sözügedən xidmət vasitəsilə öz problemləri barədə Binəqədi RİH-ə müraciət etmək imkanlarına malikdirlər.

Ötən dövrdə "1646" telefon nömrəsinə daxil olan müraciətlərin statistikası bu xidmətdən istifadə edən vətəndaşların sayının günü-gündən artdığını göstərir. Avqust ayında daxil olan zənglərin statistikasını öyrənmək üçün xidmətin rəisi Anar Səfərovla əlaqə saxladıq. Xidmət rəisinin verdiyi məlumata əsasən, 2015-ci ilin avqust ayı ərzində SMX-ya daxil olan zənglərin sayı 1973, birbaşa cavablandırılan zənglərin sayı 1426, yaradılan əks-əlaqələrin sayı 756, bir operator üzrə zənglərin orta sayı 75, tərtib edilən şikayət vərəqələrinin sayı 547 olub: "Xidmətə daxil olmuş şikayət xarakterli müraciətlərdən 542-si icra edilib. O cümlədən 470 şikayət tam həllini tapıb, 26 müraciət qismən həll edilib, 46-sı ilə bağlı müvafiq izahat verilib, 5-nin həlli icraatdadır".




Xidmət rəisinin sözlərinə görə, avqust ayı ərzində daxil olmuş müraciətlərin 351-i su-kanalizasiya, 78-i lift problemi, 25-i qaz təchizatı, 6-sı küçələrin işıqlandırılması, 15-i məişət tullantılarının daşınması, 20-si məhəllədaxili yollar, 29-u elektrik təchizatı, 3-ü yaşıllaşdırma, 6-sı küçələrin işıqlandırılması, 40-ı isə sakinləri narahat edən digər məsələlərlə bağlı olub. A.Səfərov, eyni zamanda, xidmətə ay ərzində bir neçə təşəkkür xarakterli müraciətin də daxil olduğunu diqqətə çatdırıb.

# Əsas məqsəd sakinlərin asudə vaxtının səmərəli təşkilidir

ESMİRA ORUCOVA

Milli mədəniyyətimizin inkişafı Azərbaycan dövlətinin əsas prioritetlərindəndir. Mədəni və tarixi irsin mühafizə olunması, gənc istedadların dəstəklənməsi, mədəniyyət ocaqlarının köklü şəkildə modernləşməsi və yenidən qurulması buna bariz nümunədir. Ümumiyyətlə, mədəniyyətin inkişafını stimullaşdırmaq dövlət siyasətində əhəmiyyətli yer tutur.

Paytaxtın Binəqədi rayonunda bütün sahələrə olduğu kimi, mədəniyyət sahəsinə də xüsusi diqqət göstərilir. Rayonda sosial inkişaf tədbirləri ilə yanaşı, mədəni-intellektual yüksəlişə xidmət edən tədbirlər də həyata keçirilir. Ərazidə fəaliyyət göstərən mədəniyyət və istirahət mərkəzləri əsaslı təmir edilərək əhalinin istifadəsinə verilir.

Belə mədəniyyət ocaqlarından biri də uzun illərdən bəri rayon sakinlərinə xidmət göstərən Binəqədi Rayon Mərkəzi Mədəniyyət Evidir. Mədəniyyət evinin fəaliyyəti ilə daha yaxından tanış olmaq üçün yolumuzu Binəqədi qəsəbəsindən saldıq. Müəssisənin direktoru Zivər Abbasova bizimlə söhbətində bildirdi ki, Azərbaycanın əksər tanınmış sənət adamları bu mədəniyyət evinin səhnəsində qonaq olub. Burada çoxsaylı mədəni-kütləvi tədbirlər – yubiley gecələri, konsert proqramları, müxtəlif mövzulu görüşlər, səyyar proqramlar təşkil edilib: "Respublikamızda bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də ciddi irəliləyişlər var. Ölkəmiz öz mədəniyyəti, incəsənəti, milli-mənəvi dəyərləri ilə dünyada tanınır. Azərbaycan mədəniyyətinin intibah dövrü ötən əsrin 70-80-ci illərinə – ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrünə təsadüf edir. Ulu öndər dəfələrlə çıxışlarında qeyd etmişdir ki, milli dövlətçilik dəyərlərinin əsasını sağlam düşüncəli mədəniyyət təşkil edir. Ulu öndərin bu siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Mədəniyyətin müxtəlif sahələrini əhatə edən dövlət proqramları ölkəmizin mədəni tərəqqisinə yeni stimul yaradır. Uzun illər baxımsızlıqdan əziyyət çəkən Binəqədi qəsəbəsi son dövrlər özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində qəsəbəmizdə genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib, ərazidə mühüm infrastruktur layihələri reallaşdırılıb, sosial-inzibati binalar təmir olunub. Əsaslı təmirdən sonra qəsəbə sakinlərinin istifadəsinə verilən müəssisələrdən biri də Binəqədi Rayon Mərkəzi Mədəniyyət evidir. Onu da deyim ki, bu mədəniyyət ocağının bir əsrdən çox yaşı var. İnzibati binanın təməli 1901-ci ildə qoyulub. Müxtəlif illərdə bina cari təmir üçün bağlansa da, əsaslı təmir olunmamışdı. Yalnız 2013-cü ilin iyununda burada Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən əsaslı təmir işlərinə başlanıldı. Yüksək səviyyədə yerinə yetirilən təmir işlərinə ötən ilin dekabrında yekun vuruldu. Müəssisəmiz Mədəniyyət və Turizm Nazirliyinin tabeliyindədir. Uzun illərdir ki, rayon və qəsəbə sakinlərinə mədəni xidmət göstərən mədəniyyət evində təmirdən sonra hərtərəfli şərait yaradılıb. Bizim əsas məqsədimiz əhalinin asudə vaxtının səmərəli təşkilidir. Burada görkəmli incəsənət ustaları çıxış edib, neçə-neçə xatirə gecələri, mədəni-kütləvi tədbirlər yüksək səviyyədə təşkil olunub. Bununla yanaşı, mədəniyyət ocağının yaradıcı kollektivi hərbi hissələrdə, uşaq evlərində, qocalar evlərində, cəzaçəkmə müəssisələrində dəfələrlə rəngarəng proqramlarla çıxış ediblər. Hazırda burada Ağadadaş Qurbanov adına xalq teatrı, "Qönçə" instrumental ansamblı və "Pöhrə" rəqs qrupu fəaliyyət göstərir. Xalq teatrının 15 üzvü var. Biz onları həvəskarlar arasından seçirik. Teatrın kollektivi tanınmış rejissor Ə.Abdullayevin rəhbərliyi ilə bir çox maraqlı tamaşalar hazırlayıb. A.Nemətin "Telefon dolaşıqlıqları", S.M.Qənizadənin "Dursunəli Ballıbadı", S.Rüstəmin "Çimnaz xanım yuxudadır", Ş.Xeyrullayevanın "Heykəl danışır", M.F.Axundovun "Mürafiə vəkilləri", "Cırtdan" və s. əsərlər əsasında qoyulmuş tamaşalar müxtəlif müsabiqələrdə uğurla tamaşaçılara təqdim olunub. Bu kollektivlər respublika və Bakı şəhəri üzrə bir çox tədbirlərin, müsabiqələrin, festivalların iştirakçısı və mükafatçısı olublar. Müəssisənin müəllimləri mütəmadi olaraq rayon ərazisində fəaliyyət göstərən məktəblərə gedir, istedadlı, bacarıqlı uşaqları bura cəlb edirlər. Bununla yanaşı, mədəniyyət evində ödənişli və ödənişsiz əsaslarla kurslar da fəaliyyət göstərir. Hazırda 3 yaşından 60 yaşına qədər üzvlərimiz var. Hətta evdar xanımlar bura gəlir, şeir deyir, rollarda çıxış edirlər. Xalq teatrı indi oktyabr ayında təşkil olunacaq şəhər festivalına hazırlaşır. Təmsilçilərimiz Sabit Rəhmanın "Xoşbəxtlər" tamaşasını oynayacaqlar.





Onu da deyim ki, Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin şəbəkəsinə daxil olan mədəniyyət mərkəzlərinin sayı 52-dən çoxdur. Onlardan cəmi 7-də xalq teatrı fəaliyyət göstərir. Mədəniyyət evində fəaliyyət göstərən "Pöhrə" rəqs qrupu bu günədək ətrafına yüzlərlə istedadlı uşaq cəlb edib. Binəqədinin qəsəbə və kəndlərindən olan uşaqlar təcrübəli müəllimlərin rəhbərliyi altında milli rəqslərimizin sirlərinə yiyələnirlər. Qrupun ifasında "Toy", "Qaval", "Təbrizi", "Ağ çiçəyim", "Şənlik", "Yallı", "Lalələr" və s. rəqslər müxtəlif tədbirlərdə tamaşaçı alqışları ilə qarşılanır. Bakı Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə ənənəvi olaraq keçirilən "Gül bayramı"nda mədəniyyət evinin kollektivi ilə yanaşı, "Pöhrə" rəqs qrupunun üzvləri də yaxından iştirak edirlər. Qrupun üzvləri müxtəlif təşkilatlar tərəfindən fəxri fərman və diplomlarla mükafatlandırılıblar. Bu səhnədə böyüyən uşaqlar müxtəlif müsabiqələrdə iştirak edərək qalib olublar".

Müsahibimiz, həmçinin, "Qönçə" instrumental ansamblının mütəmadi olaraq rayon və şəhər tədbirlərində iştirak etdiyini diqqətə çatdırdı: "Müxtəlif müsabiqələrdə uğurlu çıxışlarına görə ansamblın üzvləri diplom və mükafatlarla təltif olunublar. Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin "Gənclər günü" münasibətilə təşkil etdiyi müsabiqədə ansambl üzvlərinin çıxışı münsiflər tərəfindən yüksək qiymətləndirilib və onlara diplomlar təqdim olunub. İstedadlı uşaqlarımız ilk Avropa Oyunları ilə bağlı təşkil olunan müsabiqədə birinci olublar. Onu da deyim ki, mədəniyyət evinin işçiləri Bakı şəhər mədəniyyət işçiləri arasında təşkil olunan idman yarışlarında da birinciliyi əldə ediblər. Mədəniyyət ocağında, həmçinin, müxtəlif kurs və dərnəklər – musiqi alətlərində ifa, muğam, rəsm, rəqs, dərzilik, tibb, kompüter, əl işləri və s. fəaliyyət göstərir.

Mədəniyyət evində öz peşəsinin vurğunu olan müəllimlər dərs keçirlər. Rayonun uşaq, yeniyetmə və gəncləri burada fəaliyyət göstərən dərnək və kurslara həvəslə yazılır, asudə vaxtlarını səmərəli keçirirlər. Yaradıcılıq kursları, əsasən, şənbə və bazar günləri təşkil edilir. Müəssisəmiz əlverişli ərazidə yerləşdiyindən, valideynlər tam rahatlıqla öz övladlarını buradakı kurslara gətirirlər. Bu günlərdə burada gimnastika və döyüş növləri üzrə bölmələr fəaliyyətə başlayıb. Bura müraciət edən valideynlərin sayı günü-gündən artır".

Z.Abbasova deyir ki, onların əsas işi gənclərlə bağlıdır: "Gənclərin asudə vaxtlarının düzgün təşkili onların dünyagörüşünün formalaşmasında böyük rol oynayır. Ölkəmizdə gənclər asudə vaxtlarını səmərəli təşkil etməyə çalışır, bundan müxtəlif cür yararlanırlar. Ümumiyyətlə, asudə vaxt gənc nəslin tərbiyəsində diqqət mərkəzində olmalı məsələlərdən biridir. Hər yaş dövründə bu vaxtdan düzgün istifadə etmək özünəməxsus əhəmiyyət kəsb edir. Hər kəs yaşından asılı olmayaraq çalışmalıdır ki, boş vaxtını maraqlı və səmərəli keçirsin. Şagird və tələbələrin asudə vaxtlarının düzgün təşkili onların müəyyən fəaliyyətə cəlb olunması deməkdir. Asudə vaxt düzgün təşkil olunanda onlarda əməyə maraq güclənir, mədəniyyət və incəsənət nümunələri ilə tanış olmaq həvəsi yaranır. Asudə vaxtdan düzgün istifadə insanın şüur və əqidəsinə, həyata baxışına müsbət təsir etməklə yanaşı, onların inkişafına təkan verir. Bizim mədəniyyət evində də yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində silsilə tədbirlər həyata keçirilir".

Direktorun sözlərinə görə, mədəniyyət evinin yaradıcı kollektivi ənənəvi olaraq ümummilli lider Heydər Əliyevin doğum və xatirə gününə həsr olunmuş görüşlər, "dəyirmi masa"lar, əlamətdar və tarixi günlərlə bağlı tədbirlər, ədəbi-bədii kompozisiyalar, əl işlərindən ibarət sərgilər təşkil edir. Kollektiv, həmçinin, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin səmərəli təşkilində yaxından iştirak edir. Əsgərlərin döyüş ruhunun yüksəldilməsi istiqamətində müxtəlif səpkili tədbirlər təşkil olunur. Bu məqsədlə mədəniyyət mərkəzinin təmsilçiləri dəfələrlə gənclərin hərbi xidmətə yola salınması mərasimində və hərbi hissələrdə maraqlı konsert proqramları ilə çıxış ediblər. Mədəniyyət işçiləri hərbi hissələrin rəhbərliyi tərəfindən Fəxri fərman və təşəkkürlərə layiq görülüblər. Z.Abbasovanın sözlərinə görə, mədəniyyət evinin yaradıcı kollektivi Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə rayon ərazisində yerləşən hərbi hissələrdə, bölgələrdə yerləşən hərbi hissələrdə maraqlı proqramla çıxış edirlər. 26 İyun -Silahlı Qüvvələr Günündə mədəniyyət evinin kollektivi Xızı rayonunda yerləşən "N" saylı hərbi hissədə maraqlı proqramla çıxış edərək tamaşalar göstəriblər. Əsgərlərə hədiyyələr, kitablar paylanılıb. Bu cür görüşlər mütəmadi olaraq keçirilir.

Zivər xanımın sözlərinə görə, mədəniyyət evində Mərkəzləşmiş Kitabxana Sisteminin 8 saylı filialı da fəaliyyət göstərir: "Bura gələn məktəbliləri kitabxanaya cəlb edir, kitaba marağı artırmağa çalışırıq. Bu yaxınlarda mədəniyyət ocağında Nəriman Nərimanovun ev muzeyinin sərgisi təşkil olunmuşdu. 3 gün davam edən sərgidə Binəqədi qəsəbə sakinləri böyük həvəslə iştirak etdilər. Yaxın günlərdə Cəfər Cabbarlının da ev muzeyinin sərgisi keçiriləcək. Hesab edirəm ki, sakinlərlə yanaşı, gənc nəslin bu cür tədbirlərdə iştirakı onların dünyagörüşünün artmasında, vətənpərvər övlad kimi yetişmələrində mühüm əhəmiyyət daşıyır. Gələcəkdə müəssisəmizdə xalçaçılıq kursunun yaradılmasını planlaşdırırıq. Uşaqların əl işlərindən ibarət satış-sərginin keçirilməsini nəzərdə tuturuq".

## Təşəkkür məktubu

Hörmətli redaksiya, evimizin yanından keçən ana su boru xəttindən neçə ay idi ki, küçəyə su sızır, asfalt boyu üzüaşağı gedir, oradan da içməli su gölməçələrə, bağlara, evlərin zirzəmilərinə axırdı.

Bu yaxınlarda Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən Biləcəri qəsəbəsində səyyar görüş keçirildi. Görüşdə mən də iştirak edirdim və şahidi olduğum nöqsan barədə icra hakimiyyətinin başçısına məlumat verdim. Çox sağ olsunlar, müraciətim dərhal əlaqədar təşkilatların nümayəndələri tərəfindən qeydə alındı. Ertəsi gün isə Binəqədi RİH-in nümayəndəsinin rəhbərliyi ilə Sukanal idarəsinin qəza-bərpa xidmətinin işçiləri hadisə yerinə gələrək qəzanın səbəbini tapıb qısa müddətdə aradan qaldırdılar.

Xahiş edirəm, operativ tədbir gördüyünə görə, qəsəbəmizin ağsaqqalları adından Binəqədi rayonunun rəhbərliyinə təşəkkürümüzü çatdırasınız.

**Hörmətlə:**

**Davud KƏRİMOV,**
*Biləcəri qəsəbəsi, 5-ci yeni yaşayış massivinin sakini, qəsəbə Ağsaqqallar Şurası idarə heyətinin üzvü*

# Uğurlu təhsilə aparan ilkin yol

ESMİRA ORUCOVA

Müasir təhsil modelində məktəbəqədər təhsil ümumi təhsilin birinci pilləsi hesab edilir. Mütəxəssislərin qənaətincə, bu yaş mərhələsində uşaqlar nəinki bütün uşaqlar üçün ümumi olan xarakter cizgiləri, həm də xüsusi, fərdi, psixi və davranış xüsusiyyətlərini əxz edirlər. Bu dövrdə uşaqlarda hərəkətliliyə tələbat güclənir, operativ hafizə inkişaf edir, hərəkətlərin dəqiqliyi, uyğunluğu, ayrılmazlığı yaranır. Bütün hərəki fəaliyyətlər dərk olunur, dinamik və məqsədyönlü xarakter daşıyır. Fiziki və idraki çalışqanlıq artır, xarakter, əqli və iradi keyfiyyətlər, motiv formalaşır.

həmçinin fakt və hadisələri müqayisə etmək, ümumiləşdirmək, qruplaşdırmaq, əlamətlərinə görə ayırmaq, nəticə çıxarmaq kimi bacarıqlar aşılanır. İbtidai sinif müəllimləri hesab edirlər ki, məktəbəqədər hazırlıq qrupları uşaqların intellektual, fiziki, psixoloji və sosial inkişafında, onun potensial imkanlarının üzə çıxarılmasında, məktəbə hazırlanmasında, sadə əmək vərdişlərinə yiyələnməsində, istedad və qabiliyyətlərinin üzə çıxarılmasında, sağlamlığının qorunması və estetik inkişafında, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq kimi keyfiyyətlərinin, hisslərinin və həyati bacarıqlarının formalaşmasında əhəmiyyətli rol oynayacaq.

təblə bağlı təsəvvür oyanır, onlara məktəbin nə olduğu başa salınır, təhsilə həvəs yaradılır. Belə qruplar vasitəsilə uşaqlar öyrənirlər ki, məktəb yalnız təhsil verən bir qurum deyil, bura həm də uşağın özünü göstərə bilməsi üçün bir məkandır. Birinci sinfə gedəcək uşaq öyrənir ki, artıq onun həyatında yeni bir mərhələ başlayır".

Binəqədi rayonu 297 saylı məktəbin ibtidai sinif müəllimləsi Aygün İbrahimovanın fikrincə, uşaqlar dərslərin başlanmasına bir neçə ay qalmış məktəb rejiminə hazırlanmalıdırlar: "Bağça təhsili alan uşaqların gün rejimi olur. Onların yatması, səhərlər yuxudan qalxması bu rejimə uyğunlaşdırılmalıdır. Məhz bu baxımdan, belə hazırlıq qruplarının təşkili gözəl haldır. Qruplarımızda uşaqların cəmiyyətə inteqrasiyası, ünsiyyətin formalaşdırılması, məntiqi və riyazi təfəkkürün inkişafı istiqamətində iş aparılır, onlar daha çox söz ehtiyatına malik olurlar. Burada uşaqların intellektual səviyyələrinin artırılması ilə yanaşı, onlara rəsm çəkmək, şeir öyrənmək bacarıqları da aşılanır. Uşaq hazırlıqda olanda ana və atadan bir neçə saat ayrı düşür. Şübhəsiz ki, bu da onların məktəbə hazırlığına müsbət təsir göstərir. Burada uşaq müəllimlə tanış olur, onda məktəb haqqında ilkin təsəvvür yaranır. Hesab edirəm ki, bu cür qrupların fəaliyyəti nəticəsində uşaqların düşünmə, qavrama qabiliyyəti inkişaf edir. Ətraf mühitə, insanlara, əşyalara münasibətində zəruri dəyişikliklər baş verir".



Məktəbəqədər hazırlıq uşağın həm məktəbdə, həm də sonrakı həyatda uğurlar qazanmasında həlledici rol oynayır. Xatırladaq ki, Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən, paytaxt və bölgələrdəki məktəblərdə məktəbəqədər hazırlıq qrupları yaradılıb. Qrupların yaradılmasında əsas məqsəd uşaqların tədrisə hazırlığını başlaması, dərs prosesinə öncədən alışması, müəyyən biliklər əldə etməsidir.

Hazırlıq qrupları Binəqədi rayonunda fəaliyyət göstərən bir neçə təhsil müəssisəsində də təşkil edilib. Mütəxəssislər hesab edirlər ki, birinci sinfə qədəm qoyacaq uşaqlar üçün belə qruplar böyük əhəmiyyət daşıyır. Uşaqlar bu cür qruplarda müəllim və digər həmyaşıdları ilə ünsiyyət qurur, təhsil sistemi barədə məlumat əldə edirlər. Uşaqlar arasında ünsiyyətin təmin olunması baxımından, onlara özlərini göstərməsi üçün imkanlar yaratmaq lazımdır. Şahidi olmuşuq ki, çox vaxt ibtidai siniflərə qəbul olunmuş uşaqlar şeir deməkdən çəkinir, stressə düşürlər. Qruplarda bu istiqamətdə də məşqlər aparılır. Hazırlıq qruplarında uşaqlarda ətraf aləm haqqında ilkin təsəvvürlər, təfəkkür elementləri formalaşdırılır, sadə qanunlar və qanunauyğunluqlar arasında qarşılıqlı əlaqələr müəyyənləşdirilir. Məktəbə gedəcək uşaqlara

Binəqədi rayonunda fəaliyyət göstərən 102 saylı məktəbin direktoru Maili İsmayılova hesab edir ki, uşaqların özünü tanımasında, onların dünyagörüşünün artmasında bu qrupların böyük əhəmiyyəti var. Burada uşaqların ümumi inkişafı, şəxsiyyətinin formalaşdırılması diqqətdə saxlanır. Təlim-tərbiyənin səmərəliliyinin artırılmasında baş verə biləcək ləngimələrin, pozuntuların aradan qaldırılmasına, qarşılıqlı münasibətlərin düzgün qurulmasına daim nəzər yetirilir: "Ötən ilin oktyabrından fəaliyyətinə start verilən qruplar uşaqların məktəbə hazırlıq prosesinə çox müsbət təsir edəcək. Məktəbimizdə fəaliyyət göstərən qruplarda onların məntiqi təfəkkürü, özünü tanıması, ətraf mühitə uyğunlaşması və s. barədə iş aparılır. Bu cür qruplar sayəsində uşaqlarda mək-



# Hər bir dövlətin gələcəyi məhz yüksək savadlı gənclərdən asılıdır

ESMİRA ORUCOVA

Sentyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Binəqədi rayonundakı 283 saylı orta məktəbdə həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub. Təhsil müəssisəsinin binasında yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib. Bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması təhsil sahəsinin ən müasir tələblər səviyyəsinə çatdırılmasına geniş imkanlar yaradır. Şübhəsiz ki, bütün bunlar təhsil müəssisələrindən şagirdlərin bilik və bacarıqlarının artmasına, onların vətənin layiqli övladları kimi yetişdirilmələrinə zəmin yaradır.

Yenicə təmirdən çıxmış 283 saylı orta məktəbin məzunları da bu il keçirilmiş qəbul imtahanlarında yüksək bal toplayaraq təhsil aldıqları müəssisənin və yaşadıqları rayonun adını uca ediblər. XIb sinfindən olan məzunların bir neçəsi 600-dən yuxarı bal toplayıb. Tələbə adını qazanmış gənclər, onların müəllimləri və valideynləri fikirlərini "Binəqədi" qəzetinin əməkdaşı ilə bölüşüblər:



**Tahirə Məmmədli *(662 bal), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi:*** "283 saylı məktəb Binəqədi rayonunda sayılıb-seçilən məktəblərdən biridir. Bu məktəbin məzunu olduğum üçün özümü xoşbəxt hesab edirəm. Dərslərimə həmişə ciddi yanaşmışam. Düşünürəm ki, savadlı, bilikli olmaq, ali təhsil almaq və gələcəyin bacarıqlı mütəxəssisi kimi yetişmək hər bir Azərbaycan gəncinin arzusu olmalıdır. Qəbul imtahanlarında yüksək bal topladığıma çox sevinirəm. Özümün, ən əsası valideynlərimin, müəllimlərimin əziyyətinin hədər getmədiyinə çox şadam.

Orta məktəbdə coğrafiya və riyaziyyat fənninə daha çox maraq göstərmişəm. Valideynlərimin də razılığı ilə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər fakültəsinə qəbul olmaq ən böyük arzum idi. Şükürlər olsun ki, istəyimə nail oldum.

Bu nəticəni əldə etməyimdə müəllimlərimin – Məlahət Əliyevanın (coğrafiya) və Nəzakət Məmmədlinin (biologiya) böyük əməyi var. İnşallah, akademiyanı bitirdikdən sonra magistraturanı, daha sonra doktoranturanı oxumaq istəyirəm. İxtisas aldığım sahənin peşəkarı olmaq niyyətindəyəm".



**Bətul Cəbiyeva *(658 bal), Qafqaz Universitetinin tələbəsi:*** "Mən Qafqaz Universitetinin tərcüməçilik fakültəsinə qəbul olmuşam. Bu ali təhsil müəssisəsinə daxil olmaq ən böyük arzum idi. Orta məktəbdə oxuyanda humanitar fənlərə daha çox üstünlük verirdim. Ali məktəbə qəbul olmağı qarşıma məqsəd qoymuşdum. Bunun üçün var qüvvəmlə çalışdım, gecəmi-gündüzümə qatdım və nəticəsini gördüm. Sınaq imtahanlarında, adətən, 580-dən yuxarı bal toplayırdım. Yüksək nəticəyə nail olmağımda müəllimlərim – Aytəkin Rzayeva (Azərbaycan dili və ədəbiyyatı) və Saday Qasımovun (tarix) rolu böyükdür. Tanrıya şükür edirəm ki, məni öz arzuma çatdırdı. Ümid edirəm ki, təhsil aldığım sahədə də uğurlar qazanacağam və xalqıma gərəkli mütəxəssis kimi yetişəcəyəm".



**Əfsanə Şamilli *(620 bal), Tibb Universitetinin müalicə-profilaktika fakültəsinin tələbəsi:*** "Tibb Universitetinin tələbəsi olduğuma görə çox sevinirəm. Həkim olmaq uşaqlıq arzum idi. Ölkəmizin nüfuzlu ali təhsil müəssisəsində təhsil alacağım üçün qürurluyam. Müəllimlərim və ailəm mənim üçün çox əziyyət çəkib. Bu nəticəyə görə üzərimizdə əziyyəti olanlara təşəkkürümü bildirirəm. Məktəbimizin müəllimləri şagirdlərə qarşı çox ciddi və məsuliyyətli idilər. Müəllimlərimizdən Solmaz Babayeva (fizika) və Həlimə Mahmudovanın (Azərbaycan dili və ədəbiyyatı) əməyini xüsusi vurğulamaq istəyirəm. Fəxr edirəm ki, təhsil aldığım orta məktəbin adını ucaltmışam, məktəb rəhbərliyinin etimadını doğrultmuşam".



**Əkbər Vəliyev *(647 bal), Azərbaycan Neft və Sənaye Universitetinin informasiya texnologiyaları və sistemləri mühəndisliyi fakültəsinin tələbəsi:*** "Sözsüz ki, yüksək nəticə əldə edərək ali məktəbə daxil olmaq asan başa gəlmir. Bunun üçün səylə çalışmaq, orta məktəbdə keçirilən dərslərə diqqətlə yanaşmaq, müəllimlərin verdiyi tapşırıqlara əməl etmək tələb olunur. Əlbəttə, bu sahədə müəllimlərin rolu xüsusi vurğulanmalıdır. Gələcəyin kadrları məhz orta məktəblərdə, müəllimlərin nəzarəti altında yetişir. Bizim məktəbimizin müəllimləri də öz tələbkarlığı, qayğısı sayəsində şagirdlərinin yüksək nəticələr qazanmasına nail olublar. Daxil olduğum universitetdə ingilis dilində təhsil alacağam. Buna görə çox sevinirəm. Orta məktəbdə oxuduğum illərdə dəqiq fənlərə daha çox maraq göstərirdim. Yüksək nəticə qazanmağımda sinif rəhbərim Nübar Aslanovanın əməyini xüsusi vurğulamaq istəyirəm".

**Hüseyn Qasımov *(614 bal), Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə fakültəsinin tələbəsi:*** "Riyaziyyat fənninə uşaqlıqdan maraq göstərmişəm. Müəlliməm Nübar Aslanova



bu fənnin incəliklərini bizə yüksək səviyyədə öyrədib. Digər dərslərimi də yaxşı oxuyurdum, ali məktəbə qəbul olmağı qarşıma məqsəd qoymuşdum. Təhsilimi ingilis dilində alacağam. Buna görə də üzərimdə daha məsuliyyətlə işləməliyəm. Gələcəkdə ixtisas aldığım sahə üzrə işimin peşəkarı olmaq niyyətindəyəm".



**Kənan Bədirli *(610 bal), Bakı Dövlət Universitetinin kompüter elmləri fakültəsinin tələbəsi:*** "İmtahanlara çox ciddi və məsuliyyətlə hazırlaşmışdım. Dəqiq fənlərə böyük marağım var. Müəlliməm Nübar Aslanovanın gərgin əməyi sayəsində bu uğuru qazandım. Məzunu olduğum 283 saylı məktəbdə şagirdlərə qarşı böyük tələbkarlıq var. Bunun nəticəsidir ki, şagirdlər qəbul imtahanlarında, müxtəlif müsabiqələrdə iştirak edir və yüksək nəticələr qazanırlar.

Gələcəkdə təhsilimi xarici ölkələrin birində davam etdirmək niyyətindəyəm. Seçdiyim ixtisasa yüksək səviyyədə yiyələnərək vətənimə xidmət göstərmək istəyirəm".



**Sevda Rzayeva, *283 saylı orta məktəbin tərbiyə işləri üzrə direktor müavini:*** "Müstəqillik yolunda inamla addımlayan Azərbaycan artıq bütün dünyada tanınır, gündən-günə nüfuzu artır. Beynəlxalq aləmdə söz sahibinə çevrilən ölkəmiz özünün iqtisadi gücü ilə fərqlənir. Respublikamızın beynəlxalq nüfuzu ilə yanaşı, daxili inkişafına da yüksək diqqət yetirilir. Azərbaycan dövlətinin yürütdüyü siyasət nəticəsində əldə olunan sabitlik bütün sahələrdə inkişafa təkan verir. Respublikamızda istənilən sahədə, o cümlədən təhsildə inkişaf nəzərəçarpacaq dərəcədə artıb. Ulu öndər Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" deyimini əldə rəhbər tutan Azərbaycan dövləti bu sahəyə xüsusi diqqətlə yanaşır. Binəqədi rayonunda da təhsilin inkişafı istiqamətində silsilə tədbirlər həyata keçirilir. Görülən bu işlər təhsilin inkişafında mühüm rol oynayır. Təsadüfi deyil ki, rayonumuzun məktəblərində təhsil alan şagirdlər qəbul imtahanları zamanı yüksək bal toplamışlar. Və onların sayı ildən-ilə artmaqdadır. Bu il keçirilən qəbul imtahanlarında da bizim məktəbimizin uşaqları fərqləndilər. Əlbəttə ki, şagirdlərimizin fərqlənməsi sevindiricidir. Çünki onların hər biri özünün savadı, biliyi, bacarığı ilə gələcəkdə müxtəlif sahələrdə xalqımıza xidmət edəcəklər.

Ölkə Prezidentinin məktəbimizə gəlməsi bizim üçün böyük fəxrdir. Çalışacağıq ki, bundan sonra göstərilən etimadı doğruldaq. Xalqımız belə gənclərdən çox şey gözləyir. Bu gənclər dövlətimizin iqtisadi və siyasi nüfuzunun artmasına öz töhfələrini verəcəklər. Dövlətimizin gələcəyi məhz bu cür gənclərdən asılıdır. Şübhəsiz ki, bu cür uğurlar asan başa gəlmir. Bunun üçün səylə çalışmaq, dərslərə diqqətlə yanaşmaq, müəllimlərin verdiyi tapşırıqlara ciddi əməl etmək tələb olunur. Əlbəttə, bu sahədə müəllimlərin rolu xüsusi vurğulanmalıdır. Gələcəyin kadrları məhz orta məktəblərdə, müəllimlərin nəzarəti altında yetişir.

Xüsusilə qeyd etmək istəyirəm ki, Azərbaycan dövləti gənc nəslə böyük qayğı ilə yanaşır, gəncliyin vətənpərvər ruhda tərbiyəsinə yetərincə diqqət ayırır. Binəqədi rayonunda da gənc nəslin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi diqqətdə olan əsas məsələlərdəndir. Bununla əlaqədar məktəbimizdə müxtəlif silsilə tədbirlər təşkil olunur. Qarabağ müharibəsinin iştirakçıları, tanınmış yazıçı və şairlərlə görüşlərin təşkili yeniyetmə və gənclərin vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə hörmət ruhunda tərbiyə olunmasına zəmin yaradır. Hər birimiz gənc nəslin vətənpərvər vətəndaş kimi yetişməsində əlimizdən gələni etməliyik".



**Nübar Aslanova, *"XI^b" sinfinin rəhbəri, cəbr və həndəsə müəllimi:*** "Əlbəttə ki, şagirdlərimizin bu cür yüksək bal toplaması sevindiricidir. Çünki onların hər biri öz savadı, biliyi, bacarığı ilə gələcəkdə müxtəlif sahələrdə xalqımıza xidmət edəcəklər. Biz bu gənclərdən çox şey gözləyirik. Onlar dövlətimizin iqtisadi, siyasi nüfuzunun artmasına öz töhfələrini verəcəklər. Heç şübhəsiz ki, yüksək nəticə əldə edərək ali məktəblərə daxil olmaq asan başa gəlmir. Bunun üçün səylə çalışmaq, orta məktəbdə keçirilən dərslərə diqqətlə yanaşmaq, müəllimlərin verdiyi tapşırıqlara ciddi əməl etmək tələb olunur. Gələcəyin kadrları məhz orta məktəblərdə, müəllimlərin nəzarəti altında yetişir. Öz işini sevən təcrübəli müəllimlərimizin tələbkarlığı, qayğısı sayəsində şagirdlər yüksək nəticələr qazanmağa nail olublar. Məktəbimizdə təhsillə yanaşı, nizam-intizama da xüsusi diqqət yetirilir. Hər bir orta məktəb gələcəyin şəxsiyyətlərini yetişdirir. Təcrübəmə əsaslanaraq deyə bilərəm ki, intizamlı şagird həm də yüksək təhsilə can atır. Biz burada təhsil alan uşaqların daha geniş təfəkkürə malik olmaları üçün onların respublika üzrə keçirilən olimpiadalarda, müsabiqələrdə iştirakını təmin edirik. Bu cür sınaqlar şagirdlərin hansı biliyə malik olmasını üzə çıxarır. Yetirmələrimizin qəbul imtahanlarında uğurlu nəticə göstərməsi bizi çox sevindirir və ruhlandırır".

**Nəzakət Məmmədli, *biologiya müəlliməsi, Tahirə Məmmədlinin anası:*** "Bizim üçün çox sevindirici oldu ki,



məzunlarımız yüksək bal topladılar. "XI^b" sinfindən 7 nəfər 600-dən yuxarı bal yığıb. Sevinirəm ki, övladım da ən yaxşı oxuyan şagirdlərdən olub.

Məktəbimizdə kadr potensialı çox güclüdür. Savadlı, öz sahəsini dərindən bilən müəllimlərimiz var. Şübhəsiz ki, yaradılan şəraitlə güclü kadr potensialının vəhdəti uğurlara aparır".



**Ruhəngiz Cəbiyeva, *Azərbaycan-dili və ədəbiyyat müəlliməsi, Bətul Cəbiyevanın anası:*** "Bizim üçün fərəhli haldır ki, məktəbimizin yetirmələrinin əksəriyyəti ali məktəblərə qəbul olunub. Ümumiyyətlə, məktəbimizdə bu cür bacarıqlı və istedadlı şagirdlərin sayı yetərincədir. Onlar həm qəbul imtahanlarında, həm də müxtəlif müsabiqə və yarışmalarda yüksək nəticələrlə göstərilən etimadı doğruldurlar".



**Qızqayıt Əsədova, *ibtidai sinif müəlliməsi:*** "Sözsüz ki, bu cür nailiyyət kollektivin gərgin əməyi sayəsində mümkün olmuşdur. Məktəblərdə əldə olunan uğurlar həmin təhsil ocağının kollektivinin adına yazılmalıdır. Əgər müəllimlər öz işlərinə diqqətlə, vicdanla yanaşırlarsa, uğurlar qazanılır. Bizim məktəb də öncüllər sırasındadır. Məktəbimizin məzunları demək olar ki, hər il keçirilən qəbul imtahanlarında yüksək bal toplayırlar. Builki imtahanlarda yüksək bal toplayan uşaqların ibtidai sinif müəlliməsi olmuşam. Onlarla fəxr edirəm".

# Yollarda əsaslı təmir işləri aparılır

MAİL AĞAXANOV





Binəqədi rayonunda genişmiqyaslı abadlıq-quruculuq işləri sistemli və ardıcıl şəkildə davam etdirilir. Havaların əlverişli keçməsi ilə əlaqədar rayonun ayrı-ayrı mikrorayonlarında, yaşayış massivlərində küçələrə asfalt örtüyünün döşənməsi işləri uğurla həyata keçirilir. Bu barədə qəzetimizə Binəqədi Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyinin (MKTB) rəisi Azər Məmmədov məlumat verib.

Birlik rəisinin dediyinə görə, Bakı şəhəri və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafını nəzərdə tutan müvafiq Dövlət Proqramına uyğun olaraq, rayonun bir çox ərazilərində məhəllədaxili yollara asfalt örtüyü döşənir. Sentyabrın 1-dən etibarən Binəqədi Rayon İcra Hakimiyyətinin sifarişi ilə 7-ci mikrorayon, A.Kunanbayev küçəsi 4/17, 60/30, 64, 66, 70 və 76 ünvanlarında məhəllədaxili yollar əsaslı təmir edilib. Yolun uzunömürlü olması üçün əvvəlcə torpaqlama işləri aparılıb, sonrakı mərhələdə 10-15 santimetr qalınlığında asfalt örtüyü çəkilib. Yol kənarındakı səki daşlarının yenisi ilə əvəz olunması piyadaların rahat gediş-gəlişini təmin edib.

Təmir edilən yolun uzunluğunun ümumilikdə 2,5 kilometr olduğunu deyən MKTB rəisinin sözlərinə görə, asfaltlanma işlərinin mərhələli şəkildə rayonun digər ərazilərində də həyata keçirilməsi nəzərdə tutulub. Məqsəd planda nəzərdə tutulmuş bütün ərazilərdə asfaltlanma işlərini qısa zaman ərzində başa çatdırmaqdır.

Ərazidə olarkən sakinlər yollarda aparılan təmir işlərini yüksək qiymətləndirdilər. 7-ci mikrorayon, A.Kunanbayev küçəsi 9/25 nömrəli binanın sakini Tura Əliyeva bildirdi ki, ərazidəki küçələr əvvəllər bərbad vəziyyətdə olub: "Uzun müddətdir ki, bu ərazidə yollar təmir olunmurdu. Bu səbəbdən də yay aylarında mənzillərin pəncərələrini açıq saxlamaq mümkün deyildi, toz-torpaq ətrafı bürüyürdü. Qışda isə küçələr qrunt suları ilə dolur, maşınlar belə hərəkət edə bilmirdi. Odur ki, yolların təmirinin təşkilatçılarına təşəkkürümüzü bildiririk".

Mikrorayon sakini Məmmədəli Əliyev də yollara asfalt örtüyünün döşənməsinin təqdirəlayiq hal olduğunu vurğulayıb: "Binəqədi rayonunda son illər abadlıq-quruculuq işlərinin geniş vüsət aldığının şahidi oluruq. Bütün bunlara görə ölkə başçısına dərin minnətdarlığımızı bildiririk. Küçələrə yeni asfalt örtüyünün çəkilməsini yüksək qiymətləndirirəm. Bu ərazidə yollar tamamilə yararsız vəziyyətə düşmüşdü. Öz hesabımıza qışda qrunt sularının toplaşdığı çökəkliklərə bir neçə maşın daş tökürdük, lakin az sonra yol əvvəlki vəziyyətə düşürdü".

Digər sakin Ruslan Əliyev də son illər Binəqədi rayonunda, eləcə də 7-ci mikrorayonda aparılan abadlıq-quruculuq işlərini yüksək qiymətləndirdiyini deyib: "Cənab Prezidentin tapşırıq və tövsiyələrinə uyğun olaraq, ölkəmizin hər yerində abadlıq-quruculuq işləri aparılır. Bütün bunlar Binəqədi rayonundan da yan keçməyib. Rayonumuzun hər bir qəsəbəsində və mikrorayonunda yaşıllıqlar salınır, məhəllədaxili yollar asfaltlanır. Uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə idman meydançaları inşa olunur, ahıl vətəndaşların istirahəti üçün günlüklər tikilir və digər işlər görülür. Bir gənc kimi ölkəmizin günü-gündən çiçəklənməsinə çox sevinirəm".

# Narkomaniyaya qarşı mübarizə tədbirləri gücləndirilir

M.ORUCOV

Hər il dünyada narkotik istifadəçilərinin sayı artır və “ağ ölüm” insanların fiziki və mənəvi həyatına son qoyur. Dünya statistikasına nəzər salsaq, görərik ki, narkotiklərdən istifadə hələ 2012-ci ildə 183.000 ölüm faktına səbəb olub. 2011-ci illə müqayisədə bu nisbətən aşağı göstərici olsa da, 15-64 yaş arasında olan gənc və orta nəsil üçün kiçik rəqəm sayıla bilməz.

Yeniyetmələrin narkomaniya bəlasına düçar olması dövrümüzün ən aktual məsələlərindəndir. Birincisi, narkotiklərdən ilk istifadə əksər hallarda məhz kiçik yaş dövründə baş verir, ikincisi, narkotik vasitələrin təsiri (uzun müddətə narkotiklərlə zəhərlənmə) inkişafda olan orqanizmə məhvedici təsir göstərir. Bəs bu sahədə Azərbaycanda vəziyyət neçədir?

Səhiyyə Nazirliyinin mətbuat xidmətinin bu günlərdə açıqladığı statistikaya əsasən, 2013-cü il üçün narkomaniya xəstəliyinə düçar olmuş şəxslərin ümumi sayı 28 min 376 nəfər olub. 2014-cü ildə isə bu rəqəm dəyişərək 28 min 656 nəfər təşkil edib. Onlardan 15-17 yaş arasında olan şəxslərin sayı 5, 18-24 yaş arasında olanların sayı 1403 nəfərdir. Bu bəlaya düçar olanların 3 min 999 nəfəri 25-29 yaş arasındadır.

2014-cü ilin rəsmi statistik hesabatında toksikomanların ümumi sayı 152 nəfər olub. Xatırladaq ki, ölkəmizdə narkomaniyaya düçar olmuş insanların normal həyata və cəmiyyətə qaytarılması məsələnin vacibliyini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 3 dövlət proqramı təsdiq edilib. Həmin proqramlardan 2-si tam icra olunub.

2013-cü ildə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair” növbəti 5 illik Dövlət Proqramı təsdiq edilib. Dövlət Proqramının icrasını təmin etmək məqsədi ilə Nazirlər Kabineti 2014-cü ildə “Narkomanlığa düçar olmuş şəxslərin müalicəsi, reabilitasiyası və resosializasiyası üzrə Proqram”ı təsdiq edib. Proqramın məqsədi narkomanlıq xəstəliyinə düçar olmuş şəxslərin kompleks müalicə-reabilitasiya və resosializasiya tədbirlərinə cəlb edilməklə, narkotik vasitələrə və psixotrop maddələrə olan tələbatın azaldılması; proqram çərçivəsində narkotik istifadəçilərinin aşkar edilməsi və proqramlara cəlb edilməsi sisteminin yaradılması; narkotik istifadəçilərinin kompleks reabilitasiya və resosializasiya proseslərini tənzimləyən normativ-hüquqi bazanın təkmilləşdirilməsi; narkomanlığın müalicəsi ilə məşğul olan tibbi kadrların potensialının gücləndirilməsi; narkoloji yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi; əhali arasında narkomanlığın zərəri barədə maarifləndirmə işinin gücləndirilməsi; kompleks reabilitasiya kursunu müvəffəqiyyətlə başa çatdırmış narkotik istifadəçilərinin resosializasiya və postreabilitasiya sosial patronajlıq sisteminin təkmilləşdirilməsidir.




Bu baxımdan, Binəqədi rayonunda da xeyli işlər görülüb. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Seymur Hacıyevin məlumatına görə, rayonda yeniyetmə və gənclərin mənəvi-psixoloji cəhətdən düzgün tərbiyə olunması, zərərli vərdişlərdən, eləcə də narkomaniyadan qorunması daim diqqət mərkəzində saxlanılır: “Narkomaniyanın gənclər arasında yayılması hamı kimi bizi də ciddi narahat edir. Təəssüf ki, müşahidələrə əsasən, bu bəlaya düçar olanların sayı ilbəil artır. Təbii ki, burada obyektiv və subyektiv səbəblər var”.

Narkomaniyaya qarşı aparılan mübarizədən danışan S.Hacıyev qeyd edib ki, bu ilin fevral ayında Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə komissiyasının iclası keçirilib və ötən müddət ərzində görülən işlər müzakirə olunub: “Binəqədi RİH başçısının müavini, Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə komissiyasının sədri Aygün Əliyevanın sədrliyi ilə keçirilən iclasda bir daha qərara alınıb ki, bu istiqamətdə yeniyetmələr və məktəblilər arasında maarifləndirmə tədbirləri daha da gücləndirilsin. Tədbirdə RİH başçısı Aparatının Humanitar məsələlər şöbəsinin müdiri Nuridə Allahyarova, rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, həmçinin rayonun hüquq-mühafizə orqanlarının və bir sıra icra strukturlarının nümayəndələri, təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər”.

S.Hacıyevin sözlərinə görə, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı”nın və “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramının müvafiq bəndlərinə uyğun olaraq, yeniyetmə və gənclərin zərərli vərdişlərdən uzaqlaşdırılması, onların arasında sağlam həyat tərzinin təbliği və maarifləndirmə işinin genişləndirilməsi məqsədilə ötən müddət ərzində Binəqədi Mərkəzi Mədəniyyət Evinin akt zalında Gənclər və İdman Nazirliyi, Narkomanlığın və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının təşəbbüsü və Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Bakı Uşaq Teatrı tərəfindən səhnələşdirilmiş “Həyatla oyun” adlı teatr tamaşası nümayiş etdirilib: “Bu tamaşada əsasən məktəblilər iştirak ediblər. Bundan əlavə, 26 nömrəli Uşaq və Gənclərin Yaradıcılıq Mərkəzində rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə “Biz narkomaniyaya “yox” deyirik!” mövzusunda rəsm müsabiqəsi keçirilib. 26 iyun – Narkomaniyaya qarşı Beynəlxalq mübarizə günü ilə əlaqədar Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayon Mərkəzi Mədəniyyət Evində İrəvan Dövlət Dram Teatrının ifasında “Ağ ölüm” tamaşası nümayiş olunub. Rayonda fəaliyyət göstərən məktəblərdə də bu səpkidə davamlı olaraq maarifləndirici tədbirlər təşkil edilir”.

# Qəsəbələr günü-gündən gözəlləşir




Hazırda 5 inzibati ərazi vahidini birləşdirən Xocəsən bələdiyyəsi Sulutəpə, Xocəsən, 28 May qəsəbəsi, Motodrom və Çiçək yaşayış massivlərini əhatə edir. Ərazisi 18 kvadratkilometr, əhalisi 21.800 nəfərdən çox olan (qeyri-rəsmi məlumata əsasən 50.000 nəfərə yaxın) qəsəbə ərazisində Beynəlxalq Avtovağzal, 1 universitet, Atıcılıq İdman Kompleksi, Dağüstü Velopark, 4 məktəb, 2 uşaq bağçası, 2 tibb məntəqəsi, kitabxana, klub, poçt, habelə sənaye, nəqliyyat, tikinti, məişət və digər müəssisələr yerləşir.

Xocəsən bələdiyyəsinin sədri Anar Abbasovun “Binəqədi” qəzetinin əməkdaşına bildirdiyinə görə, ilin birinci yarısında qəsəbə ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib və hazırda da davam etdirilir: “Avqust ayı ərzində bələdiyyəyə sakinlər tərəfindən daxil olmuş 640 müraciətə qanunvericiliyin tələblərinə müvafiq şəkildə baxılıb və mümkün köməklik göstərilib. Bundan əlavə, ayrı-ayrı vaxtlarda sakinlərlə səyyar görüşlər keçirərək mövcud problemlərlə yerindəcə tanış olmuşuq. Bu problemlərin operativ həlli üçün bələdiyyədə məhəllə komitələri və Ağsaqqallar Şurası da yaradılıb. Şura və məhəllə komitələrinin üzvləri mütəmadi olaraq sakinlərlə görüşlər keçirir, mövcud problemlərlə maraqlanırlar. Bu görüşlərin keçirilməsi üçün xüsusi məkan yaradılıb”.

Bələdiyyə sədri bildirib ki, paytaxtımızda keçirilən I Avropa Oyunları ərəfəsində idman yarışlarına olan marağı artırmaq məqsədilə bələdiyyədə gənclərlə görüşlər təşkil olunub, bu yarışlar barədə operativ məlumatlar verilib. A.Abbasov qeyd edib ki, bələdiyyənin inzibati ərazisində mütəmadi olaraq təmizlik, abadlıq işləri aparılır. Ərazidə sakinlər üçün müasir taksi dayanacağı tikilərək istifadəyə verilib: “Məlumat üçün bildirim ki, Xocəsən bələdiyyəsinin xidməti ərazisinə aid olan Sulutəpə, Xocəsən, 28 May qəsəbələrində, Motodrom və Çiçək yaşayış massivlərində bərk məişət tullantılarını gündəlik 4-5 dəfə olmaqla poliqona daşıyaraq zərərsizləşdiririk. Bundan əlavə, məişət tullantılarının yığılması üçün 242 ədəd müasir tipli konteynerler yerləşdirilib. 6 yerdə isə məişət tullantılarının müvəqqəti toplanması meydançaları tikilib. 2015-ci il ərzində Sulutəpə, Motodrom və 28 May qəsəbələrində məişət tullantıları üçün bunker və meydança tikilərək ətrafı abadlaşdırılıb. Bələdiyyə tərəfindən xüsusi texnika cəlb edilməklə uzun müddət yığılıb qalan 2000 kubmetr sənaye və 54.000 kubmetr bərk məişət tullantıları yığılaraq poliqona daşınıb”. Bildirilib ki, bir çox ərazilərdə məhəllədaxili yollar əsaslı təmir edilib, bəzilərinə isə şebel-çınqıl qarışığı tökülərək yayılıb: “Uzun illər sakinlərin haqlı narazılığına səbəb olan məsələlərdən biri də Dəyirman yolunun vəziyyəti idi. Sakinlərin böyük əksəriyyətinin istifadə etdiyi bu yol təmir olunaraq istifadəyə verilib. Bundan əlavə, 313 saylı orta məktəbə gedən yolun 550 metrlik hissəsinə asfalt örtüyü döşənib”.

A.Abbasov vurğulayıb ki, 2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində abadlıq-quruculuq tədbirləri diqqətdə saxlanılır: “Dövlət Proqramı çərçivəsində bələdiyyə ərazisində 13857 paqonmetr qaz xətti dəyişdirilib, 1270 metr kanalizasiya xətti və ümumi sahəsi 21.850 kvadratmetr olan asfalt örtüyünün yenilənməsi həyata keçirilib. Bakı-Şamaxı yolunun sol tərəfində abadlıq və yaşıllaşma işləri görülüb. Həmin ərazidə 1530 kvadratmetr hasar müasir üzlüklərlə üzlənib, 1248 kvadratmetr hörgü işləri tamamlanaraq istifadəyə verilib. 15.570 kvadratmetr yaşıllıq və dekorativ işlər həyata keçirilib və bütün bunlar da bələdiyyə ərazisinin yüksək estetik görkəmini təmin edib”.

# “Binəqədi” klubunun yetirmələrinin uğurları

ESMİRA

Respublikamızda idmanın inkişafında, uşaq və yeniyetmələrin bu sahəyə cəlb edilməsində idman klublarının rolu böyükdür. Ölkəmizdə fəaliyyət göstərən belə idman ocaqlarında yüzlərlə yeniyetmə məşğul olur, müxtəlif idman növlərinin sirlərinə yiyələnir, təcrübə əldə edirlər.

Binəqədi qəsəbəsində yerləşən “Binəqədi” klubu da məhz belə idman ocaqlarındandır. Müxtəlif idman növləri üzrə bölmələrin fəaliyyət göstərdiyi klubun təmsilçiləri ölkədaxili və beynəlxalq yarışlarda uğurla çıxış edərək mükafatçılar sırasında yer alırlar. “Binəqədi”nin yetirmələri bu günlərdə Balakən Olimpiya İdman Kompleksində uşu-sanda və tay-boks üzrə keçirilən Azərbaycan birinciliyində qüvvələrini sınayıblar. 200-ə yaxın idmançının çıxış etdiyi birincilikdə rayonumuzun təmsilçiləri 13 qızıl, 5 gümüş və 7 bürünc medal qazanıblar.

İdman ocağının əsas məşqçilərindən olan Elçin Eminov yetirmələrinin çıxışı barədə fikirlərini bizimlə bölüşdü: “Artıq xeyli müddətdir fəaliyyət göstərən “Binəqədi” klubu öz ətrafına xeyli sayda gənc idmançı cəlb edib. Bura Binəqədi sakinləri ilə yanaşı, paytaxtın digər rayonlarından da yeniyetmələr gəlir. Sözsüz ki, idmanla məşğul olan gənclər zərərli vərdişlərdən çəkinir, asudə vaxtlarını səmərəli keçirirlər. Təmsilçilərimiz müxtəlif mötəbər yarışlarda uğurlu nəticələri ilə Azərbaycanın idman tarixinə yeni səhifələr yazırlar. Biz də öz növbəmizdə bu inkişafa töhfə verməyə çalışırıq. Yeri gəlmişkən, Binəqədi Rayon İcra Hakimiyyəti, Binəqədi qəsəbə bələdiyyəsinin rəhbərliyi ölkədaxili və beynəlxalq yarışlara hazırlıq və təlim-məşq toplanışlarının təşkili zamanı idmançılarımıza hərtərəfli diqqət və qayğı göstərir. Bu etimadı yüksək səviyyədə doğruldan idmançılarımız, ötən il olduğu kimi, bu dəfə də respublika birinciliyində özlərini yaxşı tərəfdən göstərdilər. Yeniyetmələr arasında təşkil olunan yarışda 30 döyüşçümüz mübarizə apardı. Şükürlər olsun ki, əziyyətimiz hədər getmədi. Klubumuzun yetirmələrindən Amin Əlili (24 kq), Hamza Rəsulzadə (27 kq), Natiq Əliyev (21 kq) uşu-sanda və tay-boks üzrə çempion oldu. Əli Məmmədov (35 kq), Zaur İmaməliyev (30 kq), Sabir Babayev (48 kq), İsrafil İsmayılov (52 kq) və Riyad Həsənov (56 kq) uşu-sanda üzrə qızıl medal qazandılar. 21 kq çəki dərəcəsində qüvvəsini sınayan Elmar Tağıyev hər iki növ üzrə gümüş medala sahib oldu. Fətəli İsmayılov (40 kq) tay-boks üzrə ikinci pillədə qərarlaşdı”.



Məşqçinin sözlərinə görə, Azərbaycan birinciliyində fəqlənənlər oktyabr ayında Riqada təşkil olunacaq “Baltika” çempionatında yığma komandanın heyətində yer alacaqlar. Sentyabrın sonunda isə İranda uşu-sanda üzrə “Fars” kuboku təşkil olunacaq. Yarışda “Binəqədi” klubunun üzvü Elçin Eminov (56 kq) və İlkin Bədirxanov (75 kq) da çıxış edəcəklər. İki ildən bir keçirilən turnirdə mükafatçılar sırasında yer alanlar noyabrda İndoneziyada təşkil olunacaq dünya çempionatında qalib adı uğrunda mübarizə aparacaqlar. Klubun 4 nəfər yeniyetməsi isə noyabrda İspaniyada təşkil olunacaq dünya çempionatında qüvvəsini sınayacaq.

# Tikintiyə icazə və texniki şərtlər

Son illər ölkəmizin hər yerində tikinti-quraşdırma işləri həyata keçirilir. Bunun da nəticəsində şəhər və kəndlərimizdə, qəsəbələrimizdə müxtəlif təyinatlı sənaye obyektləri, yaşayış binaları tikilib istifadəyə verilib.

Hər bir tikili böyük zəhmət hesabına başa gəldiyindən, görülən işlər müvafiq qanunvericiliyin tələblərinə uyğun aparılmalıdır. Xatırladaq ki, ölkəmizdə beynəlxalq standartlara cavab verən müvafiq qanunvericilik bazası mövcuddur. Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyi şəhərsalma və tikinti fəaliyyətinin hüquqi əsaslarını, prinsiplərini, eləcə də dövlətin, bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin şəhərsalma və tikinti fəaliyyəti sahəsində hüquq və vəzifələrini müəyyən edir. Bu sahədə insanların maarifləndirilməsi olduqca vacibdir.

**Məlumatlandırma icraatı**

Mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən və aşırımlarının uzunluğu 6 metrdən çox olmayan yaşayış evlərinin tikintisi ilə bağlı məlumatlandırma icraatı həyata keçirilir və onların tikintisi üçün tikinti layihəsinin yalnız memarlıq-planlaşdırma bölməsinin hazırlanması tələb olunur. Barəsində məlumatlandırma icraatının tətbiq edildiyi yaşayış evlərinin tikintisinə icazənin alınması tələb olunmur. Barəsində məlumatlandırma icraatı nəzərdə tutulan yaşayış evinin tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi müvafiq ərazidə qüvvədə olan müfəssəl planın tələblərinə uyğun tərtib edilməlidir. Sifarişçi tikintiyə başlamazdan əvvəl tikinti niyyəti barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verir və yaşayış evinin layihəsinin memarlıq-planlaşdırma bölməsini bu Məcəllənin 80.1-ci və 80.3-cü maddələrində nəzərdə tutulmuş tələblərə uyğunluğunun yoxlanılması üçün həmin orqana təqdim edir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən 3 ay müddətində layihəyə dair irad sifarişçiyə təqdim edilmədikdə, sifarişçi tikinti işlərinə başlaya bilər.

Barəsində məlumatlandırma icraatı tətbiq edilən yaşayış evinin tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsinə uyğun tikilməsinə nəzarəti müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

**Reklam qurğularının tikintisinə icazənin verilməsi**

Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyinin 79.1.5-ci maddəsində nəzərdə tutulmuş kiçik memarlıq formalarına aid reklam qurğuları istisna olmaqla, digər reklam qurğularının tikintisinə, quraşdırılmasına, onlara konstruktiv dəyişikliklərin edilməsinə icazə bu məcəllənin müvafiq maddələrində nəzərdə tutulmuş qaydada verilir. Sifarişçi icazə almaq üçün müvafiq icra hakimiyyəti orqanına ərizə ilə müraciət edir. Ərizəyə nəzərdə tutulmuş tikinti layihəsinin əvəzinə, aşağıdakı tikinti sənədləri əlavə olunur:

– reklam qurğusunun tikinti sxemi;

– tikinti işlərinin təsviri;

– reklam qurğusunun yerləşəcəyi ərazinin vəziyyət planı.

– Bu Məcəllənin 81.1-ci maddəsində nəzərdə tutulmuş reklam qurğularının tikintisi şəhərsalma və tikintiyə dair normativ sənədlərə uyğun olaraq aparılır.

## Dünya Bankı Cənubi Qafqaz üzrə yeni regional direktorunu təyin edib




"APA-Economics"in verdiyi xəbərə görə, direktor vəzifəsinə təyin olunan Mersi Tembon (Mercy Tembon) Azərbaycan, Gürcüstan və Ermənistanda Dünya Bankının ölkələr üzrə əməkdaşlıq strategiyalarının həyata keçirilməsi və inkişafı üzrə işə rəhbərlik edəcək.

M. Tembon vəzifəsinin icrasına oktyabrın 1-dən başlayacaq. O, bu vəzifədə Henri Keralini (Henry Kerali) əvəz edəcək.

Qeyd edək ki, bundan əvvəl M. Tembon 2000-ci ildən Dünya Bankında Afrika Regionunda İnsan Resursları İnkişafı departamentinin təhsil mütəxəssisi, 2012-ci ildən Burkina-Faso və Burundi üzrə direktor vəzifələrində çalışıb.

## Bakı-Tbilisi-Ərzurum kəməri ilə mavi yanacağın nəqli bərpa edilib



Bu barədə kəmərin Azərbaycandan keçən hissəsinin operatoru olan "BP-Azerbaijan" şirkətinin mətbuat xidmətinin rəhbəri Tamam Bayatlı bildirib.

T. Bayatlının sözlərinə görə, hasilat və ixrac əməliyyatları normal qaydada həyata keçirilir.

Xatırladaq ki, avqustun 25-də gecə saatlarında PKK terrorçuları Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin Qars vilayətindən keçən hissəsində partlayış törədiblər.

Partlayış kəmərin Qars vilayətinin Sarıqamış qəsəbəsindən keçən hissəsində törədilib. Qars valisi Günay Özdəmir mətbuata açıqlamasında partlayışın 20-dək PKK terrorçusunun hücumu nəticəsində törədildiyini bildirib. Onun sözlərinə görə, kəmər vasitəsilə təbii qazın nəqli dayandırılıb. Hadisə yerində müşahidə olunan güclü alov qonşu Ərzurum vilayətinin bəzi yaşayış məntəqələrindən də aydın görünüb.



# Avropanın miqrasiya siyasəti nə vəd edir?

Hazırda Avropa ağlasığmaz miqrant axını ilə üz-üzədir. Təkcə 2015-ci ildə Avropa İttifaqı ərazisinə Afrika və Yaxın Şərqdən 350 min miqrant gəlib.

Bu rəqəmə planlı və tipik miqrasiya axınını, yəni inkişaf etmiş ölkələrdən olan, yaşayış yerini Avropaya dəyişmək istəyən miqrantları da əlavə etmək lazımdır. Ən nəhayət, Ukraynadan Şərqi Avropa ölkələrinə, xüsusilə ölkənin təhlükəsizliyinə təminat verən, müharibə zonasından qaçan şəxsləri sığınacaqla təmin edən Polşaya miqrant axını müşahidə olunur. Nəticədə vəziyyət partlayış həddinə çatıb və bu, Avropanın daha radikal əhval-ruhiyyəyə köklənmiş dairələrini müəyyən addımlar və bəyanatlara məcbur edir.

Beləliklə, hazırda ən aktual məsələ Avropa İttifaqının təklif etdiyi, miqrantların qəbuluna dair məcburi kvotaların qəbuludur. Yumşaq formada desək, bu məsələdə fikir birliyi yoxdur. Brüsselin bu təşəbbüsü bəzi ölkələrdə rəğbətlə qarşılanmayıb, digər ölkələr isə qəti şəkildə bu ideyaya qarşı çıxıblar. Faktiki ideya İtaliya və Yunanıstanda məskunlaşmış miqrantların Avropa İttifaqı ölkələri arasında bərabər şəkildə bölüşdürülməsindən ibarətdir. Nəticədə miqrant axınına qarşı təkbaşına mübarizədən yorulmuş İtaliya, digər tərəfdən isə Almaniya, Avstriya və İsveç bu ideyanı dəstəkləyirlər. Bundan başqa, İtaliya nəinki bu ideyanın lehinədir, həm də faktiki olaraq əks təqdirdə bütün Avropanın zərərinə olacaq addımlar atacağına işarə vurur. Yəni, ya miqrantları könüllü şəkildə qəbul edəcəksiniz, ya da onları başqa formada qəbul etməli olacaqsınız. Bu yanaşma həm də qonşu dövlətlərin hərəkətlərinə cavabdır: Fransa sərhədlərini miqrantlar üçün bağlı elan edib, Avstriya və İsveçrə miqrantların gəlişinə birdəfəlik qadağa qoyub. Bu ölkələrin polisləri italyan şəhərlərindən gələn qatarlarda yoxlama keçirir, aşkarladığı miqrantları geri qaytarırlar. Avropa İttifaqı İtaliya və Yunanıstanın istəyini reallaşdırmaq qərarına gəlib və 40 min miqrantı birlik ölkələri arasında kvota prinsipi ilə bölüşdürməyi təklif edib. Kvotaların ölçüsü 4 kriteridən asılıdır: əhalinin sayı, ölkələrin ÜDM-nin həcmi, işsizlik səviyyəsi, həmin ölkənin 2010-2014-cü illərdə qəbul etdiyi qaçqınların sayı. Və burada ilk iki faktor əsas rol oynayır.

Daha sərt mövqe tutanlar isə Şərqi Avropa ölkələridir. Məsələn ilin əvvəlindən Kosovo, Yaxın Şərq və Şimali Afrikadan 50 min qaçqına sığınacaq verən Macarıstan bəyan edib ki, Avropa İttifaqı qərar versə belə, heç bir vəchlə bu sayda qaçqını qəbul etməyəcək. Ukraynalılar və Polşa ilə vəziyyəti heç müzakirə etməyə dəyməz, ukraynalıların Polşaya axını dayanmır. Buna görə də Avropa İttifaqının kvotalarla bağlı qərarı hələlik sual altındadır.

Ayrı-ayrı ölkələrin bu cür radikal addımlar atması Avropa İttifaqının mövcudluq və sərbəst hərəkət etmə prinsipini şübhə altına salır. Məsələn, Belçikada artıq dəmiryollarında təhlükəsizlik tədbirləri gücləndirilib. Sərnişinlərin yüklərinə nəzarət artırılıb, vağzallarda patrulların sayı çoxalıb. Macarıstan Serbiya ilə sərhəddə tikanlı məftillərlə örtülmüş hasarın tikintisini başa çatdırıb. Hollandiya qaçqın status verilməsinə dair qanunvericiliyi sərtləşdirmək qərarına gəlib. Bolqarıstan Makedoniya ilə sərhəddə nəzarəti təmin etmək üçün bölgəyə qoşunlar yeridib. Bu hələ bu son deyil, əksinə, başlanğıcdır.

Adətən olduğu kimi, hətta uzun müddət inkişafda olan böhranın son nöqtəsi olur və bu son nöqtə qəti addımlar atılmasını zəruri edir. Bu dəfə səbir kasasını daşıran son damla 21 avqust insidenti oldu. Söhbət Amsterdam-Paris sürət qatarının sərnişinlərinə hücumdan gedir. Mərakeşli Eyyub Kazzaninin açdığı atəş nəticəsində üç nəfər yaralanıb. Bu hadisə dərhal millətçilik, ksenofobiya və islamofobiya elementlərinin qabardığı yeni antimiqrasiya kampaniyasına səbəb olub. Məsələ bundadır ki, Avropa İttifaqında çox zaman qaçqınları potensial terrorçu kimi qəbul edirlər. Belə hesab olunur ki, Avropaya qaçqınlarla birlikdə radikal islamçılar da ayaq aça bilər. Bu münasibəti təsdiqləyən real fakt hələlik mövcud deyil, bundan başqa ehtimalın özünü doğruldacağı da inandırıcı görünmür. Hələliksə Avropa İttifaqı dəmiryollarında təhlükəsizliyin möhkəmləndirilməsi üçün tədbirlər görməkdədir. Bu addımlar Avropa İttifaqının bütün üzvləri ilə razılaşdırılıb. Müzakirələrdə Fransa, Britaniya, Almaniya, İtaliya, İspaniya, Belçika, Lüksemburq, Niderland və İsveçrədən nazirlər iştirak ediblər. Söhbət stansiyalarda sərnişinlərin şəxsiyyətinin müəyyənləşməsi və yüklərə nəzarətin gücləndirilməsindən, silah daşımaqla bağlı qanunvericiliyin sərtləşdirilməsindən, Avropa ölkələrinin təhlükəsizlik orqanları arasında əməkdaşlığın genişləndirilməsindən gedir.

Qərb ölkələrinin nümayəndələri radikalizmlə yanaşı, ölkələr arasında divarların, sədlərin tikilməsi addımlarını da pisləyiblər. Bununla belə, Avstriyanın xarici işlər naziri Sebastyan Kurts Avropa İttifaqı ölkələri arasında sərhəd-keçid qaydalarının sərtləşdiriləcəyini istisna etməyib. Bu isə, bildiyimiz kimi Şengen zonasının mahiyyəti təhlükə altına salır. Nəticədə Almaniyanın daxili işlər naziri Tomas de Mezyer Şengen zonasının mövcudluğuna son qoyula biləcəyini bəyan edib və Almaniya hakimiyyətinin sərhədlərdə pasport nəzarəti rejimi tətbiq edəcəyini istisna etməyib. Lakin əksər ekspertlər hesab edir ki, bu bəyanat daha çox siyasi xarakter daşıyır və Aİ-da böhranın aradan qaldırılmasına Almaniya qədər aktiv can yandırmayan digər ölkələrə təzyiq etməyə hesablanıb. Ola bilər ki, bu həm də Almaniya ilə sərhədlərdə sərt rejimin tətbiqində maraqlı olmayan Şərqi Avropa ölkələrinə bir işarədir.




# Azərbaycanda viza verilməsi və aviabiletlərin qiyməti ilə bağlı təkliflər paketi hazırlanıb

Ölkə Prezidentinin turizmin inkişafı ilə bağlı təkliflərin hazırlanması məqsədilə verdiyi tapşırıqdan sonra 2-3 ulduzlu hotellərin tikilməsi, vizaların verilməsi və aviabiletlərin qiymətinə təsir edən konkret təkliflər hazırlanaraq müvafiq qurumlara təqdim edilib. Bunu mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədov jurnalistlərə bildirib.

N.Səmədov deyib ki, təkliflərdə bu sahədə çalışan sahibkarlar üçün vergi güzəştlərinin tətbiq edilməsi, sahibkarlar tərəfindən çəkilən xərclərin dövlət tərəfindən ödənilməsi, 2-3 ulduzlu hotellərin tikilməsi ilə bağlı Sahibkarllığa Kömək Milli Fondunun mehmanxana seqmentinə daha çox diqqət ayırması öz əksini tapıb. Nazir müavini qeyd edib ki, dünyada turizmin inkişaf etdiyi ölkələrin əksəriyyətində sahibkarlar üçün vergi güzəştləri tətbiq edilir: "Bəlkə də bizdə də bunu tətbiq etmək vaxtı çatıb".

N.Səmədov bildirib ki, artıq aviabiletlərin qiyməti ucuzlaşıb, biletlərin qiymətlərinin endirilməsi artıq Azərbaycana gəlmək üçün turizm paketinin qiymətlərinə də öz təsirini göstərib. Eyni zamanda, viza ilə bağlı Nazirlər Kabineti "Turizm şirkətlərinə viza vermək hüququ verən akkreditasiya qaydaları"nı təsdiqləyib: "Artıq 65 turizm şirkəti bu hüquqa malikdir. İnanırıq ki, bu, Azərbaycana çoxsaylı turistlərin gəlməsinə imkan verəcək".

O, əlavə edib ki, viza ilə bağlı dünya təcrübəsinə əsaslanmaqla hazırlanan təkliflər Xarici İşlər Nazirliyinə təqdim edilib.

Hotellərdə qiymətlərin bazar tərəfindən tənzimləndiyini deyən N.Səmədov bildirib ki, bəzi sahibkarlar Mədəniyyət və Turizm Nazirliyinin təkliflərini və tövsiyələrini nəzərə almaqla qiymətləri endiriblər: "Dövlət olaraq bu sahədə hansısa islahatlar da aparmalıyıq. Bununla bağlı da Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təkliflər hazırlanıb".

## NATO-dan Türkiyəyə dəstək



"Terrora heç nə ilə haqq qazandırmaq olmaz". Bu sözləri NATO Baş katibi Yens Stoltenberq deyib. O, PKK-nın Türkiyənin Hakkari və İqdır vilayətlərində təşkil etdiyi terror hücumlarını qınayıb: "Hakkaridə və İqdırda təşkil edilən PKK hücumlarını şiddətlə qınayıram. Türk hökumətinə, həyatını itirən əsgər və polislərin ailələrinə başsağlığı verirəm. Terrora heç nə ilə haqq qazandırmaq olmaz. NATO müttəfiqi Türkiyə hökumətinin və xalqının yanındadır".

Qeyd edək ki, sentyabrın 6 və 8-də Hakkari ilə İqdırda PKK-nın təşkil etdiyi terror hücumlarında 30-a yaxın əsgər və polis şəhid olub.

Angela Merkel:

## "PKK-nın terror təşkilatı olması məsələsində tərəddüd yoxdur"



Almaniya kansleri Angela Merkel PKK-nın terror təşkilatı olduğu və bu məsələdə birgə mübarizə ilə bağlı heç bir tərəddüd olmadığını bildirib. Türkiyənin "Milliyet" qəzetinin yaydığı xəbərə görə, A.Merkel bunu türkiyəli həmkarı Əhməd Davudoğluna Dağlıcada baş verən terrorla bağlı başsağlığı verərkən deyib. A.Merkelin miqrant probleminə də toxunub. Ə.Davudoğlu Türkiyənin 2 milyon qaçqına ev sahibliyi etdiyini, qeyri-qanuni yollarla başqa ölkələrə keçmək istəyən qaçqınların qarşısının alındığını bildirib. Onun sözlərinə görə, Suriya rejimindən və "İŞİD" hücumlarından qaçan miqrantlarla bağlı məsələdə beynəlxalq əməkdaşlığın gücləndirilməsi labüddür.